QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 131 (5603) 14 **iyul** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# İlham Əliyev: "Bizim siyasi iradəmizə heç bir qüvvə təsir edə bilməz"

*Prezident İlham Əliyevin yanında respublikanın hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə iclas keçirilib*



Səh 2

9

Səfir Erkan Özoral: Azərbaycan və Türkiyənin həyata keçirdiyi birgə layihələr dünyada böyük rezonans yaradır



13

Nikoldan növbəti siyasi blef



16

Ronaldo getdi, "Real" 1 milyon izləyicisini itirdi



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

14 iyul 2018-ci il

# İlham Əliyev: “Bizim siyasi iradəmizə heç bir qüvvə təsir edə bilməz”

## *Prezident İlham Əliyevin yanında respublikanın hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə iclas keçirilib*

***İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında respublikanın hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə iclas keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Prezident İlham Əliyev bildirib ki, iyulun 3-də və iyulun 10-da Gəncə şəhərində törədilmiş qanlı cinayətlər dövlətçiliyimizə qarşı törədilmiş cinayətlərdir:***





“Bu terror aktları nəticəsində iki polis əməkdaşı həlak oldu. Yaralanan vətəndaşlarımız da var, onlardan biri də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısıdır. Allah şəhidlərimizə rəhmət eləsin, yaralananlara Allah şəfa versin.

Bu cinayətləri törədən terrorçu qruplaşma Azərbaycanda sabitliyi pozmaq istəyir. Bu cinayətlərin əsas məqsədi bundan ibarətdir. Bu qanlı terror aktları cəmiyyətdə gərginlik yaratmaq və cəmiyyətimizi qorxutmaq məqsədilə törədilmişdir. Bu terror aktları dini şüarlar altında törədilmişdir. Bu, özlüyündə İslam dininə qarşı ən böyük cinayətdir. Çünki İslam sülh, mərhəmət dinidir. Azərbaycan dövləti və Azərbaycan xalqı öz milli, dini dəyərlərini daim qoruyur. Azərbaycan İslam mədəniyyətini dünyada ən çox təbliğ edən ölkələrdən biridir. Bildiyiniz kimi, ötən il Azərbaycanda “İslam Həmrəyliyi İli” elan olunmuşdur, İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Bu il Naxçıvan İslam mədəniyyətinin paytaxtı şəhəridir. Bir neçə il əvvəl Bakı şəhəri bu şərəfli ada layiq görülmüşdür. Müsəlman ölkələrini birləşdirən İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda dini sahədə görülən işlərə ən yüksək qiymət verir. Azərbaycan dövlətinin xətti və dəstəyi ilə dövlət vəsaiti hesabına bizim tarixi-dini abidələrimiz tam bərpa olunub, yenidən qurulub, yeni məscidlər tikilib. Yəni, bir daha demək istəyirəm ki, bu cinayəti dinimizə bağlamaq istəyənlər dinimizə qarşı ən böyük cinayət törədiblər. Bu cinayətkarlar müsəlman deyillər və bu cinayətlər cavabsız qalmır. Cinayətkarlar və onların arxasında dayananlar heç vaxt öz məkrli arzularına çata bilməyəcəklər. Azərbaycan dövləti və Azərbaycan xalqı buna heç vaxt imkan verməyəcək. Bütün Azərbaycan xalqı bu qanlı cinayətləri birmənalı olaraq pislədi və bu cinayətləri törədənlərə qarşı öz nifrətini ifadə etdi.

Azərbaycan dövləti isə öz üzərinə düşən bütün vəzifələri şərəflə yerinə yetirir. Cinayətkar dəstə zərərsizləşdirilib, əməliyyat-axtarış işləri davam etdirilir. Bu cinayətlərdə əli olan bütün cinayətkarlar məsuliyyətə cəlb olunacaqlar. Hüquq-mühafizə orqanları qarşısında bu vəzifə qoyulub, əminəm ki, biz buna nail olacağıq.

Bizim müstəqillik tariximizdə ölkəmizə qarşı bir neçə dəfə təxribatlar törədilmişdir, o cümlədən silahlı təxribatlar, terror aktları, dövlət çevrilişlərinə cəhd. Onların biri də baş tutmadı. Bunun başlıca səbəbi ondan ibarətdir ki, Azərbaycanda xalq-iqtidar birliyi var. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm, xalq-iqtidar birliyi sabitliyimizin əsas şərtidir. Xalq-iqtidar birliyini heç bir qüvvə - nə xarici, nə daxili qüvvə sarsıda bilməz.

Bizim siyasi iradəmizə heç bir qüvvə təsir edə bilməz. Bizi tutduğumuz yoldan heç kim döndərə bilməz. Azərbaycanın müasir tarixi mənim dediklərimi dəfələrlə sübut edib. Kim ki, bizə qarşı çirkin niyyətlərlə hərəkət edib, özü bu hərəkətlərin qurbanı olub. Əvvəllər də belə olub, bu gün də belədir, bundan sonra da belə olacaq.

Azərbaycanda təhlükəsizlik ən yüksək səviyyədə təmin edilir. Dünya miqyasında Azərbaycan ən təhlükəsiz ölkələrdən biridir. Azərbaycan xalqı sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayıb yaradır, qurur. Azərbaycan xalqının rahat yaşaması üçün biz əlimizdən gələni edirik. Bu gün Azərbaycan dünya miqyasında sürətlə inkişaf edən müasir dövlətdir. Gündən-günə bizim gücümüz artır, gündən-günə bizim potensialımız güclənir - həm siyasi sahədə, diplomatik sahədə, iqtisadi sahədə, hərbi quruculuq sahəsində, döyüş meydanlarında, idman meydançalarında, sosial sahədə. Son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci bir ölkə olmamışdır. Ona görə, əlbəttə ki, bizim uğurlarımıza kölgə salmaq, siyasətimizə təsir etmək istəyən qüvvələr müxtəlif üsullardan istifadə edirlər. Bizə qarşı çirkin kampaniyalar aparılır, qarayaxma, şər-böhtan kampaniyaları. Yalan, iftira üzərində qurulmuş bu kampaniyaların heç bir səmərəsi olmur. Azərbaycan xalqı bu yalanlara, bu böhtanlara inanmır. Azərbaycan xalqı öz rəhbərliyinə inanır. Bu il keçirilmiş prezident seçkiləri bunu bir daha bütün dünyaya əyani şəkildə sübut etdi.

Bizə qarşı müxtəlif xarici mərkəzlərdən idarə olunan media qaralama kampaniyası aparılır. Bunun da heç bir səmərəsi olmur. Özünü hüquq müdafiəçisi adlandıran bir neçə qeyri-hökumət təşkilatı Azərbaycana qarşı gecə-gündüz şər-böhtan kampaniyası aparır. Bunun da nə ölkə daxilində, nə də ki, xaricdə heç bir təsiri olmadı. Bizim xarici əlaqələrimiz genişlənir. NATO-nun bu günlərdə keçirilmiş Zirvə görüşü bizim nə qədər yüksək hörmətə malik olduğumuzu bir daha sübut etdi. Azərbaycan bu gün dünya miqyasında çox böyük hörmətə malik bir ölkədir.

Yəni, bu cəhdlər əbəsdir. Bizim siyasətimizə, bizim iradəmizə şər qüvvələr heç cür təsir edə bilmir. Onların son addımları göstərir ki, terrordan başqa əllərində bir şey qalmayıb. Bu da keçməyəcək, necə ki, əvvəlki illərdə keçməyib. Azərbaycan dövləti bu dəfə də öz gücünü göstərib və göstərəcəkdir. Bütün cinayətkarlar məsuliyyətə cəlb olunacaqlar, məhkəmə qarşısında, ədalət qarşısında, xalq qarşısında cavab verəcəklər. Bunu təmin etmək üçün bizim kifayət qədər gücümüz, imkanlarımız var.

Cinayətlərdən sonra aparılan əməliyyat-axtarış tədbirləri onu göstərir ki, cinayətkarların bir hissəsi artıq saxlanılıbdır. Operativ əməliyyat-axtarış tədbirləri davam etdiriləcək. Tam əminliklə deyə bilərəm ki, heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək.

Azərbaycan xalqı isə tam əmin ola bilər ki, Azərbaycan bundan sonra da inkişaf, tərəqqi yolu ilə gedəcək. Biz bundan sonra da öz siyasətimizi aparacağıq, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik.

x x x

Sonra hüquq-mühafizə orqanlarının rəhbərləri törədilən cinayətlərlə bağlı həyata keçirilən əməliyyat-axtarış tədbirləri və atılacaq addımlar barədə dövlətimizin başçısına məruzə etdilər.

# “Azərbaycan ilə İran arasında ikitərəfli münasibətlər bütün sahələrdə uğurla inkişaf edir”

## *Prezident İlham Əliyev İranın səhiyyə, müalicə və tibbi təhsil nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də İran İslam Respublikasının səhiyyə, müalicə və tibbi təhsil naziri Həsən Qazizadə Haşiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, nazir Həsən Qazizadə Haşimi İran Prezidenti Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin səyləri nəticəsində ölkələrimiz arasında ikitərəfli münasibətlər gündən-günə güclənir və möhkəmlənir.

Dövlətimizin başçısı Azərbaycan ilə İran arasında ikitərəfli münasibətlərin bütün sahələrdə, o cümlədən səhiyyə sahəsində uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Prezident Həsən Ruhani ilə görüşlərini məmnunluqla xatırlayaraq qeyd etdi ki, bu görüşlər zamanı səhiyyə sahəsində əməkdaşlıq məsələləri də müzakirə edilib və bununla bağlı işlərin həyata keçirilməsi üçün müvafiq tapşırıqlar da verilib. Dövlətimizin başçısı İran İslam Respublikasının səhiyyə, müalicə və tibbi təhsil naziri Həsən Qazizadə Haşiminin Azərbaycana səfərinin ölkələrimizin səhiyyə sahəsində əməkdaşlığının genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Prezident İlham Əliyev İran Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Prezident Həsən Ruhaniyə çatdırmağı xahiş etdi.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Daxili İşlər Nazirliyinin əməkdaşlarının “Azərbaycan Bayrağı” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, 2018-ci il iyulun 10-da Gəncə şəhərində ictimai asayişi kobud şəkildə pozmaq cəhdinin qarşısının alınması zamanı cəsarət və polis andına sonadək sadiqlik nümayiş etdirərək qəhrəmancasına həlak olmuş Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı əməkdaşları “Azərbaycan Bayrağı” ordeni ilə təltif edilsinlər:

**İlqar Məmməd oğlu Balakişiyev - polis polkovniki (ölümündən sonra)**
**Səməd Yunis oğlu Abbasov - polis polkovnik-leytenantı (ölümündən sonra)**

* * *

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 avqust tarixli 1345 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Sudeif İmamverdiyevin “Şərəf” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda deyilir ki, Azərbaycan Respublikasında tibb elminin inkişafında böyük xidmətlərinə görə Sudeif Bəşir oğlu İmamverdiyev “Şərəf” ordeni ilə təltif edilsin.

# Argentina qəzeti Azərbaycan səfirinin erməni əsilli jurnalistin qərəzli yazısına cavab məqaləsini dərc edib

Argentinanın, ümumilikdə regionun aparıcı və ən çox oxucu kütləsinə malik KİV-dən olan “Clarin” qəzetində dərc olunmuş, qəzetin erməni əsilli jurnalisti Magda Tagtachianın müəllifi olduğu “Artsax və Azərbaycan, müharibə davam edəcəkmi?” başlıqlı yazısı ilə bağlı qəzetdə cavab hüququ qismində Azərbaycanın Argentinadakı səfiri Rəşad Aslanovun “Azərbaycanın məqsədi öz ərazi bütövlüyünü bərpa etməkdir” adlı cavab məktubu dərc edilib.

Səfir R.Aslanovun “Clarin” redaksiyasına ünvanlanmış cavab məktubunda Dağlıq Qarabağın tarixən Azərbaycana məxsus olması, ermənilərin müxtəlif dövrlərdə oraya köçürülməsi, Azərbaycan SSR tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması, Ermənistan ərazisindən azərbaycanlıların müxtəlif vaxtlarda kütləvi deportasiyası, Ermənistanın ölkəmizə qarşı tarixən mövcud olmuş və Sovet İttifaqının son illərində yenidən canlanmış ərazi iddiaları, ölkəmizə qarşı hərbi təcavüzü, o cümlədən torpaqlarımızın 20 faizinin işğal edilməsi və 1 milyondan çox insanın qaçqın və məcburi köçkünə çevrilməsi və münaqişə ilə bağlı beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş sənədlər, bu sənədlərin Ermənistan qoşunlarının işğal olunmuş ərazilərimizdən dərhal və qeydsiz-şərtsiz çıxarılmasını və azərbaycanlı qaçqınların öz torpaqlarına qaytarılmasını tələb etdiyi haqda ətraflı məlumat verilib.

Ermənistan işğalçı qüvvələrinin Azərbaycan ərazisində mövcudluğu və bu səbəbdən ölkəmizin öz ərazi bütövlüyünün bərpası üçün hərbi yoldan istifadə etməsinin onun tam suveren hüququ olduğu, bununla belə, ölkəmizin hələ də münaqişənin sülh yolu ilə həlli istiqamətində səylərini əsirgəmədiyi qeyd edilir.



# Müasir Azərbaycan dövlətinin Xilaskarı və Qurucusu

***Azərbaycanın Memarı və Qurucusu Ulu Öndər Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın dinamik inkişafı, aparılan məqsədyönlü, daxili və xarici siyasəti bugünkü möhtəşəm uğurların təməlini qoydu. Xalqına, vətəninə sonsuz sədaqəti, məhəbbəti, uzaqgörənliyi, xeyirxahlığı, düşünülmüş və gərgin fəaliyyəti ilə Azərbaycanın ictimai-siyasi, iqtisadi, mədəni və mənəvi həyatında yeni bir tarix yaratdı.***



Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətini və xalqını zamanın ən çətin sınaqlarından çıxararaq, ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuşdur. Bu gün Onun Azərbaycana rəhbərlik etdiyi dövrü vərəqlədikcə, Ulu Öndər Heydər Əliyev zəkasını, düşüncəsini, müdrikliyini, böyüklüyünü bir daha hiss edir, Ümummilli Liderin respublikamız və xalqımız üçün misilsiz xidmətlər göstərdiyinin şahidi oluruq. Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etdiyi dövrdən etibarən Azərbaycanın iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialının ölkənin gələcək inkişafına və xalqın rifahının yüksəlməsinə yönəldilməsi prosesinə başlanıldı. Ulu Öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə rəhbərlik etdiyi dövr ərzində respublikanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq oldu. Kənd təsərrüfatının və sənayenin, iqtisadiyyatın digər sahələrinin inkişafında, sosial məsələlərin həllində və əhalinin rifah halının yaxşılaşdırılmasında böyük irəliləyiş əldə edildi.

Həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr edən Ulu Öndər Heydər Əliyev bütün bu illərdə Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət və xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarmış, müasir Azərbaycan adlandırdığımız müstəqil məmləkəti, onun bugünkü həqiqətlərini, işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır. Bu illər ərzində Azərbaycan xalqının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş Onun adı ilə bağlıdır.

XX yüzilliyin 60-cı illərinin sonunda Heydər Əliyevin doğma xalqa həsr olunmuş ömür yolunda yeni, daha geniş, çoxşaxəli, qaynar fəaliyyət dövrü başlandı.

Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan və zəngin idarəçilik təcrübəsi qazanmış Ulu Öndər Heydər Əliyev Azərbaycanı düşmüş olduğu çox ağır vəziyyətdən çıxarmaq üçün qəti addımlar atmağa başladı. O, dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlatdı və dərhal onların icrasına başlandı. Böyük siyasətçi iqtisadiyyat, o cümlədən, kənd təsərrüfatı və mədəniyyətin müxtəlif sahələrində öz Vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist Partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə çevirmək yolunda qətiyyətli mübarizə aparırdı. Dahi Öndər Heydər Əliyevin uzaqgörən siyasəti, müdrik və səriştəli rəhbərliyi nəticəsində, Azərbaycan o zaman bütün Sovet İttifaqında ən qabaqcıl kənd təsərrüfatı respublikasına, o cümlədən, qabaqcıl pambıqçılıq və üzümçülük diyarına çevrildi. Kənd zəhmətkeşlərinin sosial-iqtisadi vəziyyəti əsaslı surətdə yaxşılaşdı. Azərbaycan kəndində misilsiz tikinti, abadlıq və mədəni quruculuq işləri aparıldı.

Tarixən qısa bir dövr ərzində, bütövlükdə, respublika ərazisində yüzlərlə zavod, fabrik və istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi. Həmin illərin Azərbaycanı nəhəng bir tikinti meydanını xatırladırdı. Bakının və respublika rayonlarının siması büsbütün dəyişmişdi.

XX əsrin sonlarında beynəlxalq aləmdə və Sovet İttifaqında yaranan əlverişli vəziyyət xalqımıza qəlbində yaşatdığı müstəqillik arzularını yenidən reallaşdırmaq imkanı verdi. 1991-ci ildə sovet imperiyasının süquta uğraması nəticəsində, digər müttəfiq respublikalar kimi, Azərbaycan da özünün dövlət müstəqilliyinə nail oldu. O zamanlar hakimiyyətdə olan siyasi dairələrin səriştəsizliyi az qala bu müstəqilliyin də məhv olmasına gətirib çıxaracaqdı. Hakimiyyət çəkişmələrinin məntiqi nəticəsi kimi, cəbhədəki uğursuzluqlar və daxildə separatçı meyillərin güclənməsi dövlətçiliyimizin və müstəqilliyimizin məhvini qaçılmaz edirdi. Belə bir ağır vəziyyətdə Azərbaycan xalqının tələb və istəyi ilə hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev müstəqil dövlətçiliyimizi və suverenliyimizi bütün təhlükələrdən və təhdidlərdən xilas etdi. Xalqın tarixinə iz salan 1993-cü il 15 iyun Azərbaycanın ictimai-siyasi və mədəni həyatında hadisəyə çevrildi. Həmin tarixi gün - Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanda yeni tarixi dövrün əsası qoyuldu. Onun ölkə rəhbərliyinə qayıdışından sonra səmərəli dövlətçilik konsepsiyasına, iqtisadiyyatın dirçəlişi strategiyasına və azərbaycançılıq fəlsəfəsinin əsaslarına uyğun olaraq, demokratik keçid yoluna qədəm qoyuldu.

Beləliklə də, Ulu Öndər Heydər Əliyevin qayıdışı ilə xalqımızın Azərbaycanın müstəqilliyinin dönməzliyinin təmin olunması kimi arzusu yerinə yetdi. Həm ideoloji, həm siyasi, həm sosial-iqtisadi, həm də mədəni sahələrdə ölkəmizdə köklü dəyişikliklər baş verdi. 15 iyundan ötən dövrdən Azərbaycan beynəlxalq aləmdə mövqeyini əhəmiyyətli dərəcədə gücləndirib, dünyada söz sahibi olan nüfuzlu dövlətə çevrilib. Təbii ki, bütün bunlar Ulu Öndər Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində əldə olundu.

Ümummilli Lider fəaliyyəti ilə xalqımızın, dövlətimizin inkişafı və gələcəyi üçün işıqlı bir yol açdı. Bu yol sayəsində Azərbaycan bu gün dünya dövlətləri sırasında öz nüfuzu ilə fərqlənir. Ulu Öndərin gərgin əməyi sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik təmin olundu, müstəqil dövlətimizin ilk konstitusiyası yaradıldı, qanunverici, icraedici və məhkəmə hakimiyyətinin fəaliyyəti üçün əsaslı zəmin yaradıldı və Azərbaycan inkişaf yolunda əmin addımlarla irəliləməyə başladı.

Bu gün müstəqil Azərbaycan Ümummilli Liderin ideyaları Heydər Əliyev yolu irəliləyərək inkişaf edir. Məhz Heydər Əliyev siyasəti nəticəsində, Azərbaycan bugünkü inkişaf səviyyəsinə gəlib çatıb. Azərbaycan Prezidenti Cənab İlham Əliyev Heydər Əliyev siyasətini inkişaf etdirərək, ölkəmizə yeni-yeni nailiyyətlər qazandırır.

Bu gün Azərbaycan dünyada nüfuzlu dövlətlər sırasındadır. Təbii ki, bu nailiyyət Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində qazanılıb. Dövlətimizin başçısının siyasəti xalqımızın mənafeyinə və xoş sabahına xidmət edir. Təsadüfi deyil ki, Azərbaycan dünya dövlətləri ilə iqtisadi, siyasi, mədəni və mənəvi əlaqələri inkişaf etdirir və öz sülhpərvər siyasəti ilə onlara nümunə göstərir. Müstəqil Azərbaycan bir çox beynəlxalq səviyyəli qlobal tədbirlərə ev sahibliyi edir. Çünki dünya dövlətləri ölkəmizi sülh, sabitlik və əmin-amanlıq məkanı kimi qəbul edir. Bu gün bütün dünya - beynəlxalq aləm Azərbaycanın uğurlarına şahidlik edir. Müasir müstəqil Azərbaycan inkişaf yolunda gələcəyə əmin addımlarla irəliləyir. Bütün sahələrdə dayanıqlı inkişafın əldə olunması üçün məqsədyönlü və ardıcıl işlər görülür. Bu inkişaf bütün bölgələrimizin simasında öz əksini tapır. Azərbaycanın rayonları, şəhər, kənd və qəsəbələri öz abadlığı, gözəlliyi və müasir görkəmi ilə fərqlənir.

Bunlarla yanaşı, insanların sosial durumu - həyat şəraiti, mütəmadi olaraq, yaxşılaşdırılır. Əldə edilən çoxsaylı nailiyyətlər sübut edir ki, Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycanın gələcəyi üçün nəzərdə tutduğu bütün işlər böyük uğurla həyata keçirilir. Bu gün hər bir vətəndaşımız ölkəmizin uğurlarından qürur duyur. Qazanılan nailiyyətlər xalqımızı daha böyük qələbələrə və zəfərlərə ruhlandırır. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu islahatlar kursu bu gün uğurla davam etdirilir. İctimai, siyasi, iqtisadi və hüquqi islahatlar həm ayrı-ayrı sahələrin davamlı inkişafını təmin edir və həm də Azərbaycanın qüdrətli dövlət kimi tərəqqisini şərtləndirir.

**Nəzakət ƏLƏDDİNQIZI**



# Naxçıvan Muxtar Respublikası Ali Məclisində mükafatların təqdimatı olub



1969-cu il iyulun 14-də ümummilli liderimiz Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə Azərbaycan iqtisadi və mədəni yüksəlişə nail olub, bütün sahələrdə böyük uğurlar qazanılıb, ölkənin gələcək müstəqilliyinin əsası qoyulub. Bu gün Heydər Əliyev yolu ilə gedərək gündən-günə inkişaf edən, tərəqqiyə qovuşan Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf təmin edilib, dövlət-xalq birliyi və sabitlik yaranıb. Hər bir ölkə vətəndaşı Ulu Öndərin siyasi xəttinə sədaqət nümayiş etdirərək Azərbaycanın inkişafına öz töhfəsini verir. Dövlətinə və xalqına sədaqətlə xidmət edən vətənpərvər insanların əməyi isə daim yüksək qiymətləndirilir, onlar ölkəmizin müxtəlif orden, medal və fəxri adları ilə təltif olunurlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyulun 13-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Respublikasının orden və medallarının, eləcə də Azərbaycan Respublikasının fəxri adlarının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları ölkəmizin yüksək orden, medal və fəxri adlara layiq görülmələri münasibətilə təbrik edib. “Orden, medal və fəxri adlara layiq görülmək şücaət göstərmək, öz işində fərqlənmək və nümunəvi xidmət etməkdir”, - deyən Ali Məclisin Sədri təltif olunanlara təşəkkür edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikasının orden və medallarını, Azərbaycan Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini təltif olunanlara təqdim edib.

Təltif olunanlardan Şəmsi Əsgərov, Surayyə Zeynalova, Hüseyn Mikayılov və Teymur Eyyubov dövlət mükafatlarına layiq görülmələrini çalışdıqları kollektivlərin əməyinə verilən yüksək qiymət kimi dəyərləndirib və qeyd ediblər ki, Ulu Öndərin siyasi xəttinin davam etdirilməsi Azərbaycanı qüdrətli dövlətə çevirib. Yaradılan şərait hər bir insanı yaxşı işləməyə, nümunə göstərməyə ruhlandırır. Təltif olunanlar bundan sonra da ölkəmizin inkişafı və tərəqqisi naminə səylə çalışacaqlarına söz veriblər.

“İgidliyə görə” medalı ilə təltif olunan Mircəlal İsaqov deyib: Muxtar respublikada ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Torpaqlarımız etibarlı müdafiə olunur. Günnüt əməliyyatı da ordumuzda döyüş hazırlığının yüksək səviyyədə olduğunu bir daha göstərdi. Bu əməliyyatlarda iştirak edən hərbi qulluqçular Ali Baş Komandan tərəfindən təltif olundular. Mən də “İgidliyə görə” medalı ilə təltif olunmuşam. Hərbçi yoldaşlarım adından minnətdarlıq edir və söz veririk ki, bundan sonra da verilən hər bir tapşırığı uğurla yerinə yetirəcəyik.

“Hərbi xidmətlərə görə” medalı ilə təltif olunan Füzuli İsmayılov minnətdarlıq edərək deyib: Mən Naxçıvan Muxtar Respublikasında leytenant rütbəsində xidmətə başlamışam. Lakin bu gün polkovnik rütbəsinə qədər yüksəlmişəm. Muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlərlə yanaşı, həm də hərbi qulluqçular üçün hərtərəfli məişət şəraiti yaradılır. Hərbi xidmət dövründə özüm və ailəm daim qayğı ilə əhatə olunmuşuq. Təltif olunmağım məsuliyyətimi artırır və məni daha da nümunəvi xidmət etməyə ruhlandırır. Fəxr edirəm ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikasında xidmət edirəm.

# Azərbaycan ağsaqqalları radikal qüvvələrin cəmiyyətimizi iğtişaşlara təhrik etməsini qətiyyətlə pisləyirlər

*Azərbaycan Ağsaqqallar Şurası Gəncə hadisələri ilə bağlı müraciət yayıb. Şuranın sədri, Milli Məclisin deputatı Fəttah Heydərov müraciəti AZƏRTAC-a şərh edərək deyib:*



-Gəncə şəhərində baş verən qətl və təxribat hadisələri hər bir Azərbaycan vətəndaşı kimi, bizi - respublika ağsaqqallarını da ciddi narahat edir. Hesab edirik ki, ölkəmizin uğurlarını, dinamik inkişafını gözü götürməyən anti-Azərbaycan qüvvələr müxtəlif vaxtlarda olduğu kimi, yenə də respublikamızda xaos və qarşıdurma yaratmağa can atır, bir sıra dövlətlərdə törətdikləri qanlı cinayətləri, böyük qırğınları Azərbaycanda da həyata keçirməyə çalışırlar. Ancaq Azərbaycanda din pərdəsi altında gizlənərək iğtişaşlar yaratmaqda maraqlı olan bu xarici qüvvələr bilməlidirlər ki, ölkəmizə qarşı yönəlmiş bütün təxribat əməllərinin qarşısı hər zaman qətiyyətlə alınacaq və onlar öz çirkin niyyətlərinə çata bilməyəcəklər. Çünki Azərbaycan güclü dövlətdir, ölkəmizdə sarsılmaz xalq-iqtidar birliyi mövcuddur, Azərbaycan xalqı Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasəti qətiyyətlə dəstəkləyir və onun ətrafında sıx birləşib.

Buna görə də Azərbaycanın dövlət müstəqilliyinə, ölkəmizdəki ictimai-siyasi sabitliyə qarşı çıxan hər bir qüvvə bu birlik və həmrəylik qarşısında gücsüzdür. Hər zaman dövlətimizin və dövlətçiliyimizin yanında olan vətənpərvər gəncəlilər və bütövlükdə Azərbaycan xalqı qədim və tarixi şəhərimiz olan Gəncədə baş verən təxribatlara qarşı barışmaz mövqeyini ortaya qoyaraq ölkəmizdə terror, xaos, gərginlik yaratmaq, ictimai-siyasi sabitliyi pozmaq istəyən qüvvələrin planlarını puça çıxardılar. Vətəndaşlarımız dövlətimizin ətrafında daha sıx birləşərək anti-Azərbaycan qüvvələrə meydan vermədilər. Ölkənin tanınmış ictimai-siyasi xadimləri, alim və ziyalıları, ümumiyyətlə, xalqımızın hər bir nümayəndəsi bu təxribat əməllərini kəskin şəkildə pisləyərək, əsl vətəndaşlıq mövqeyi ortaya qoydu və öz dövlətinə sahib çıxdı.

Ölkəmizdə ictimai-siyasi sabitliyi, dövlətçiliyin qorunmasını, əhalimizin əmin-amanlıq və təhlükəsiz şəraitdə yaşayışının təmin olunmasını canı və qanı bahasına həyata keçirən mərd və cəsarətli Azərbaycan polisi bu dəfə də məkrli qüvvələrin layiqli cavabını verdi. Lakin böyük üzüntü və təəssüf hissi ilə qeyd etmək istəyirik ki, Gəncə hadisələri zamanı bir qrup təxribatçının cinayətkar əməlləri nəticəsində iki qəhrəman polis zabitimiz şəhid oldu. Allahdan şəhid polislərimizə rəhmət, yaxınlarına səbir diləyirik.

Gəncə şəhərində törədilmiş təxribat hərəkətlərinə qarşı milli birlik nümayiş etdirmək və dövlətimizə dəstək olmaq Vətənini sevən hər bir azərbaycanlının borcudur. Hər zaman xalqımızın, dövlətimizin yanında olan Azərbaycan ağsaqqalları radikal qüvvələrin cəmiyyətimizi iğtişaşlara təhrik etməsini qətiyyətlə pisləyərək, baş verən bu hadisələri dövlətçiliyimizə, milli mənəvi dəyərlərimizə qarşı təxribat, xalqımıza və dövlətimizə yönəlmiş terror kimi dəyərləndirirlər. Azərbaycanda təxribat törətmək istəyən qüvvələr, Vətənini və dövlətini sevməyən, kimlərinsə əlində alətə çevrilmiş insanlar bilməlidirlər ki, onların bütün məkrli əməllərinin qarşısı qətiyyətlə alınacaq.

Azərbaycan qorunur, onun güclü dövlət başçısı, sarsılmaz dövlətçiliyi və mərd övladları var. Bu gün Azərbaycan xalqı öz Prezidentinə inanır və onun ətrafında sıx birləşib. Bu xalqı, milləti çirkin əməllərlə qorxutmaq, parçalamaq olmaz. Biz bütün xalqımıza, xüsusən də gənclərə səslənərək, onları daha da ayıq-sayıq olmağa, anti-Azərbaycan qüvvələrin təxribatlarına uymamağa, ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin ətrafında daha sıx birləşməyə, hər zaman olduğu kimi, yenə də dövlətimizin və dövlətçiliyimizin yanında olmağa çağırırıq.

# Rəsmi açıqlama: “Gəncədə törədilən qanlı cinayətlər xaricdən idarə edilib”

***Artıq Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Xidmətinin məlumatında iyulun 10-da Gəncə şəhərində törədilən qanlı cinayətin bütün iştirakçılarının müəyyənləşdirildiyi, 11 nəfərin həbs olunduğu, Rəşad Böyükkişiyevin isə məhv edildiyi bildirilib.***



İstintaq-axtarış əməliyyatı zamanı müəyyən olunub ki, hadisədən bir gün əvvəl Rəşad Böyükkişiyev bütün ailə üzvlərini və yaxınlarını Gürcüstana çıxarıb. Həmçinin, cinayət törətməkdə şübhəli bilinən Bəkram Əliyev isə iyulun 9-da Rusiyadan Gəncəyə gəlib. Bu faktlar təsdiq edir ki, cinayət qabaqcadan planlaşdırılmış aksiya olub və bilavasitə xaricdən idarə edilib. Əldə edilən bəzi faktlar cinayət iştirakçılarının bir qisminin həm də Ermənistan xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən dini-ekstremist təşkilatla sıx bağlı olduğunu deməyə ciddi əsaslar yaradıb.

# Brüsseldə qəbul edilən qərarlar Azərbaycanın beynəlxalq münasibətlər sistemində yerini möhkəmləndirmiş oldu

***Azərbaycan Prezidentinin Brüsselə səfəri, orada keçirilən görüşlər və imzalanan sənədlər Azərbaycanın xarici siyasətinin növbəti mühüm uğuru kimi qiymətləndirilməlidir. Əslində, bu cür ciddi əhəmiyyətli strateji sənədlərin imzalanması ilə bağlı ilkin anonsu Azərbaycan Prezidenti İlham Əliyev iyul ayının 8-də Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında vermişdi.***



*Hikmət Babaoğlu, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili*

İlk növbədə, Cənab Prezident ölkəmizdə keçirilən son prezident seçkilərinə toxunaraq, bunu Azərbaycan cəmiyyətinin və xalqının legitim iradəsinin hüquqi əsaslarda nəticəsi kimi qeyd etdi. Əlbəttə ki, Cənab Prezident bu seçkilərə beynəlxalq reaksiyanın üzərində dayandı. Biz bilirik ki, hər bir dövlətin xarici siyasəti onun daxili siyasətinin davamıdır. Daxili vəziyyətlə bağlı təsbitlər və qiymətləndirmədən sonra Cənab Prezident Azərbaycanın xarici siyasət məsələlərinə toxundu və ölkəmizin beynəlxalq nüfuzunun hər gün daha da artdığını, beynəlxalq təşkilatlarla və dünya siyasətini müəyyənləşdirən dövlətlərlə ölkəmizin xüsusi münasibətlərinin olduğunu bildirdi. Məlum oldu ki, dünya siyasətini müəyyənləşdirən ölkələrdən biri olan ABŞ-ın Prezidenti aprel və may aylarında Azərbaycan Prezidentinə üç dəfə məktub göndərib, Avropa İttifaqı ilə mühüm sazişin imzalanması ərəfəsindəyik, digər beynəlxalq təşkilatlarla Azərbaycanın münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoymaqdadır və bu da ölkəmizin beynəlxalq münasibətlər sistemində yerini və rolunu möhkəmləndirir. Bu fikirlərin altməzmunu isə ondan ibarət idi ki, bütün bu addımların hamısının məqsədi Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi, sərhədlərinin toxunulmazlığını təmin etməsidir.

NATO-nun Brüssel Sammitində qəbul edilən Yekun Kommunikedə Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının, xüsusi olaraq qeyd edilməsi strateji əhəmiyyətə malikdir.

Bundan bir qədər sonra, iyul ayının 11-də çox mühüm tarixi hadisələr baş verdi. Onlardan birincisi tərəfdaşlığın prioritetləri ilə bağlı Avropa İttifaqı ilə Azərbaycanın münasibətlərini keyfiyyətcə yeni mərhələyə daşıyan sənədlərin paraflanması oldu. İkinci əsas məsələ isə NATO-nun Brüssel Sammitində qəbul edilən Yekun Kommunikedə Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının xüsusi olaraq qeyd edilməsidir. Məlum olduğu kimi, Azərbaycan 2002-ci ildən NATO ilə tərəfdaşlıq edir, "Qətiyyətli dəstək missiyası" çərçivəsində əməkdaşlığa malikdir, Əfqanıstana sülhməramlı hərbçilərini göndərir. Amma bunlar heç də məsələlərin hamısı deyil. Azərbaycanın Şimali Atlantika Alyansı ilə əlaqələrinin olduqca dərin və çoxspektrli kökləri var. Buraya həm kommunikasiya, həm təchizat, həm iqtisadi əlaqələr, həm də Azərbaycanın nəqliyyat-kommunikasiyası vasitəsilə Qərbdən gələn strateji yüklərin Əfqanıstana daşınması məsələləri daxildir. Bu kontekstdə Azərbaycan Prezidentinin Brüsseldə Əfqanıstan Prezidenti ilə görüşməsi də təsadüfi deyildi.

Brüsseldə diqqətçəkən məsələlərdən biri isə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı erməni tərəfinin siyasi avantürasına son qoyulması oldu. Məlum olduğu kimi, Ermənistanda baş verən hakimiyyət dəyişikliyindən sonra yeni baş nazir tərəfindən avantürist fikirlər səsləndirilir, Dağlıq Qarabağ ermənilərinin danışıqlarda tərəf olaraq təqdim olunması kimi məsələlər gündəmə gətirilirdi. Ancaq biz bu mötəbər toplantıda dünya siyasətini müəyyənləşdirən, onun keyfiyyətini, istiqamətlərini təyin edən beynəlxalq təşkilatların mövqeyinin bir daha Azərbaycanın lehinə olduğunu gördük. NATO-nun qəbul etdiyi son Kommunikeni, habelə Avropa İttifaqı ilə Azərbaycan arasında Brüsseldə imzalanan sənədləri, "Tərəfdaşlıq prioritetləri"nin paraflanması məsələsini buna misal olaraq göstərmək olar. Eyni zamanda, bu arada Rusiya tərəfinin də mövqeyinin şahidi olduq. Bu günlərdə Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi N.Patruşevin fikirlərindən aydın oldu ki, Rusiya tərəfi də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mərhələli şəkildə həll olunmasının tərəfdarıdır. Əslində, bu üç mövqenin hər biri N.Paşinyanın irəli sürdüyü iddiaları rədd etməklə yanaşı, son dövrlərdə işğalçı Ermənistanın, onun baş nazirinin siyasi avantüra ilə məşğul olduğunu sübut etdi. Azərbaycan tərəfi isə ciddi diplomatik missiya ilə əhəmiyyətli diplomatik uğurlar əldə etdi və iki mühüm beynəlxalq təşkilatın qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyü yenidən təsbit edildi. Ona görə də, birmənalı olaraq, demək olar ki, qəbul edilmiş bu iki sənəd Azərbaycanın beynəlxalq münasibətlər sistemində siyasi-hüquqi baxımdan yerini və rolunu bir daha möhkəmləndirmiş oldu.

### Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub

Bu gün hər kəsə bəllidir ki, Azərbaycan tərəfdaşlıq və əməkdaşlıq məkanıdır. Ayrı-ayrı ölkələrin baş qərargah rəislərinin, güc strukturlarının rəhbərlərinin görüşləri, Qoşulmama Hərəkatının Azərbaycanda keçirilən tədbirləri həmin dövlətlərin ölkəmizə münasibətdə yüksək etimad və etibarından xəbər verir. Azərbaycanı sevməyənlər ölkəmizi qarşıdurma və rəqabət məkanına çevirməyi qarşılarına məqsəd qoymuşdular. Amma Azərbaycan Prezidenti dedi ki, Azərbaycan tərəfdaşlıq və əməkaşlıq məkanıdır. Tərəfdaşlıq və əməkdaşlığın ən gözəl nümunələrindən biri iyulun 12-də Brüsseldə müşahidə edildi. Çünki Avropa İttifaqı ilə Azərbaycan arasında yeni sazişin əsaslarını müəyyənləşdirəcək prioritetlər müəyyənləşdirildi və paraflandı. Məlum olduğu kimi, Avropa İttifaqı ilə Azərbaycanın tərəfdaşlığının uzun tarixi var, "Avropa qonşuluq siyasəti", "Şərq tərəfdaşlığı" proqramları çərçivəsində bu qurum ilə Azərbaycanın münasibətləri çox yaxşı idi. Lakin bu münasibətlər tarixində iki mərhələ xüsusi olaraq önə çıxır: biri 2011-ci ili, digəri isə 2015-ci ili əhatə edir. 2011-ci ildə Avropa İttifaqının qəbul etdiyi qətnamədə Gürcüstanın və Moldovanın ərazi bütövlüyü dəstəkləndiyi halda, Azərbaycanın ərazi bütövlüyü ilə bağlı heç nə deyilmirdi. Bu proses 2015-ci ilə qədər davam etdi. 2015-ci ildə keçirilən "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində baş tutan Avropa İttifaqının Riqa Sammitində yenə Azərbaycanın ərazi bütövlüyündən söhbət getmədi. Ona görə də Azərbaycan tərəfi Riqa Sammitində yüksək səviyyədə təmsil olunmadı. Yəni Cənab Prezident Riqa Sammitinə getmədi, orada iştirakdan imtina etdi. Çünki Azərbaycanın xarici siyasətinin əsas prioriteti ərazi bütövlüyünün bərpa edilməsidir. Yəni Avropa ölkələri ilə tərəfdaşlıq edilirsə, enerji təhlükəsizliyinin təmin edilməsi üçün alternativ enerji yolları yaradılırsa, yeni nəqliyyat-kommunikasiya xəttləri çəkilirsə, niyə Avropa İttifaqının sənədlərində Azərbaycanın ərazi bütövlüyündən söhbət getməməlidir? Ona görə də Azərbaycanın sonrakı mərhələdə həyata keçirdiyi "hücum diplomatiyası" siyasəti sayəsində Avropa İttifaqı ilə Azərbaycanın münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoydu.

Bu mənada, Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanan sənədlərdə Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı məsələsi qeyd edildi. Əslində, bu, məsələnin hələ yalnız bir tərəfi, amma çox vacib tərəfidir. Digər vacib məqam ondan ibarətdir ki, insan hüquqlarından, iqtisadi sferadan başlamış mədəni inteqrasiya, demokratik təsisatlarla əməkdaşlıq və qeyri-hökumət təşkilatlarına qədər bütün sahələrdə bir sıra məsələlər Azərbaycan və Avropa İttifaqı arasında imzalanan sənədlərdə öz əksini tapıb. Bu isə Azərbaycanın maraqları çərçivəsindədir. Çünki Azərbaycan öz dəyərlərinə sadiq qalmaqla Qərbə inteqrasiyanın tərəfdarıdır.

### Azərbaycan diplomatiyasının növbəti mühüm uğuru

Bu sənədin daha bir əhəmiyyəti də ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığının təsbit edildiyi sənədi Avropa İttifaqına üzv olan 28 dövlət konsensus əsasında qəbul edib. Yəni Avropa İttifaqına üzv olan ölkələrdən biri səs verməsə, bu sənəd qəbul edilməz. Bu ölkələrdən biri ATƏT-in Minsk Qrupunun həmsədri olan Fransadır. İkinci incə məqam isə ondan ibarətdir ki, indiyə qədər ermənilər beynəlxalq hüquqla manipulyasiya edirdilər. Belə ki, onlar, xüsusilə Helsinki Yekun Aktını önə çəkməklə dövlətlərin ərazi bütövlüyü ilə yanaşı, xalqların öz müqəddəratını təyinetmə hüququna istinad edirdilər. Bu sənədin paraflanması ilə bu mübahisəyə, ümumiyyətlə, son qoyuldu. Çünki bu sənəddə Helsinki Yekun Aktına istinad edilərək ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı imperativ kimi müəyyənləşdirildi. Əslində, burada heç bir mübahisə yox idi. Cənab Prezident də əvvəllər demişdi ki, xalqların öz müqəddəratını təyin etməsi yalnız ərazi bütövlüyü prinsipi çərçivəsində mümkündür. Cənab Prezidentin səsləndirdiyi bu fikir paraflanan "Tərəfdaşlıq prioritetləri" sənədində öz əksini tapdı. Nəticə etibarilə, bu hadisəni Azərbaycanın xarici siyasətində mühüm uğur kimi qiymətləndirmək olar.

### Azərbaycan öz qətiyyətli və ardıcıl mövqeyi ilə Ermənistanı danışıqlar masasına qayıtmağa məcbur etdi

Brüsseldə baş verən mühüm hadisələrdən biri də Azərbaycanın və ABŞ-ın müdafiə və xarici işlər nazirlərinin görüşü idi. Bu görüş çox əhəmiyyətli idi. Azərbaycan-ABŞ münasibətləri tarixində bu formatda keçirilən ilk görüş idi. Heç şübhəsiz ki, bu görüşdə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və "Qətiyyətli dəstək missiyası" çərçivəsində Əfqanıstanın təchizatı məsələləri barədə söhbət aparılıb və ərazi bütövlüyü məsələsinə toxunulub. Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşü isə indiyə qədər Ermənistanın yeni avantürist hakimiyyətinin görüşlərdə iştirak etməmək cəhdlərinin və siyasətinin iflasa uğraması ilə əhəmiyyətli idi. Ona görə də, Ermənistanın baş naziri N.Paşinyan Brüsseldən qayıdarkən erməni jurnalistlərinin "bu görüş sonrakı mərhələ üçün nə vəd edir" sualları qarşısında pis vəziyyətdə qaldı. Sadəcə, gələcəkdə prezidentlərin görüşünün planlaşdırılmasından söhbət getmədiyini deyə bildi. Yəni əslində, Azərbaycan öz qətiyyətli və ardıcıl mövqeyi ilə Ermənistanı danışıqlar masasına qayıtmağa məcbur etdi. Amma heç kim düşünməsin ki, Azərbaycan bu cür danışıqların keçirilməsində maraqlıdır və sona qədər də belə danışıqların həyata keçirilməsinə tərəfdardır. Danışıqlar bir vasitədir. Özü də müəyyən mərhələdə olan bir vasitədir. Azərbaycan vaxtı çatanda, daha doğrusu, geostrateji şərtlər uyğun olan kimi öz ərazi bütövlüyünü danışıqlarsız - güc hesabına bərpa edəcək. Keçirilən paradla və son əməliyyatlarla da biz bunu sübut etmişik.

Bu sınaqdan müvəffəqiyyətlə çıxmağımız Azərbaycan xalqı ilə onun legitim əsaslarda formalaşdırdığı hakimiyyətin birliyi sayəsində mümkün oldu. Bu birlik həm də ərazi bütövlüyümüzü təmin edəcək gücün əsasını təşkil edir.

Nəhayət, son günlər ölkə daxilində baş verən hadisələri, beynəlxalq münasibətlərdə və xarici siyasətimizdə əldə edilən uğurlu nəticələri detalları ilə bir yerə toplayaraq, bütövlükdə vahid geostrateji tablonu yaratmağa çalışsaq, görərik ki, Azərbaycan üçün belə mühüm görüşlərin keçirilməsi və sənədlərin imzalanması ərəfəsində ölkə daxilində terror törədənlər və onların havadarları Azərbaycana düşmən olan qüvvələrdir. Bunlara baxmayaraq, Azərbaycan bu görüşləri keçirdi, bu sənədləri imzaladı, Azərbaycanın ərazi bütövlüyü bir daha təsbit edildi, daxildə baş qaldıran təxribatçılar və terrorçular isə layiqli şəkildə cəzalandırıldı. Bu sınaqdan müvəffəqiyyətlə çıxmağımız isə Azərbaycan xalqı ilə onun legitim əsaslarda formalaşdırdığı hakimiyyətin birliyi sayəsində mümkün oldu. Bu birlik həm də ərazi bütövlüyümüzü təmin edəcək gücün əsasını təşkil edir.

# "Heç bir xarici və daxili qüvvə bu qətiyyətin qarşısını ala bilmək iqtidarında olmayıb və olmayacaq da"



*Müsahibimiz Yeni Azərbaycan Partiyası Xəzər rayon təşkilatının sədri Namiq Əhmədovdur*

***-Namiq müəllim, Gəncə olayları, orada baş vermiş təxribat və terror hadisələri, artıq bir neçə gündür ki, ictimaiyyətin diqqət mərkəzindədir. Sizin bu hadisələr ətrafında hansı mülahizələriniz var?***

-İyulun 3-ü və 10-da Gəncədə həyata keçirilən terror aktlarının ilkin təfərrüatları, belə bir qənaətə gəlməyə əsas verir ki, bu hadisələr xaricdəki anti - Azərbaycan dairələr tərəfindən təşkil edilib və vəziyyəti idarə etməyə çalışıblar. Bununla da, növbəti dəfə Azərbaycanda vətəndaş qarşıdurması, milli, etnik, dini ayrıseçkilik yaratmaqla ölkədəki mövcud sabitlik və tolerant mühitə zərbə vurmağa cəhd etdilər. Möhkəmlənən müstəqillik, qazanılan uğurlar, gündən-günə güclənən, regionda sabitlik faktoru və əməkdaşlıq məkanına çevrilən Azərbaycan, şübhəsiz ki, həm daxildə, həm də xaricdə bəzi dairələrdə qıcıq doğurur. Odur ki, bədxahlarımız belə ekstremal vəziyyətlərdə daha da fəallaşır, təxribatlar törətməklə Azərbaycanın müsbət imicinə xələl gətirmək istəyirlər.

***-Sizcə, Mingəçevirdə baş vermiş məlum qəzadan sonra Gəncə hadisələrinin baş verməsi təsadüfi sayıla bilərmi?***

-İyulun 2-dən 3-nə keçən gecə Mingəçevir İstilik-Elektrik Stansiyasında baş verən qəzadan dərhal sonra Gəncə şəhərində terror törədilməsi bir təxribatdır və bu təxribat heç də təsadüfi deyil. Daha sonra əvvəlcədən planlaşdırılan ssenarinin növbəti hissəsi - Gəncədə iğtişaş törətmək cəhdi işə salındı. Xaricdəki anti-Azərbaycan mərkəzlərin əvvəlcədən hazırlanmış təxribat planının hədəfi isə, sözsüz ki, fərdlər deyil, regionda və dünyada sabitlik adası kimi xarkterizə olunan Azərbaycan və onun müstəqilliyi idi.

Əlbəttə, cinayətkarların qidalandıqları mənbələri hadisənin özündən də təxmin etmək mümkündür. İğtişaş törətməklə ictimai-siyasi sabitliyi pozmaq, ölkədə ajiotaj yaratmaq onların əsas məqsədi idi. Uzaq və yaxın xaricdən aldıqları bu sifarişləri yerinə yetirmək üçün din pərdəsinə bürünən cinayətkar ünsürlər ictimai-siyasi sabitliyi pozmaq üçün mümkün olan bütün çirkin vasitələrdən istifadə etdilər. Kriminal elementlərdən ibarət, dini fanatizm pərdəsi altında gizlənən iğtişaş iştirakçıları, hətta ictimai asayiş keşikçilərini vəhşicəsinə qətlə yetirməkdən belə çəkinmədilər. Ancaq qarşılarında müstəqilliyi və dövlətçiliyi, qanları bahasına olsa belə, qorumağa qadir Azərbaycan vətəndaşı-Azərbaycan polisini gördülər və nəticədə, çirkin niyyətlərinə nail ola bilmədilər.

***-Namiq müəllim, maraqlıdır ki, hadisələr baş verər-verməz, dağıdıcı müxalifətə məxsus sosial şəbəkə trolları, eləcə də, bir sıra informasiya saytları Azərbaycanda çaxnaşma yaratmağa istiqamətlənmiş çağırışlar etdilər. Sizcə, onların müəyyən donorlar tərəfindən maliyyələşmələri mümkündürmü?***

-Terror və iğtişaş zamanı xaricdəki bəzi sosial şəbəkələr üzərindən yayımlanan təxribat xarakterli informasiyaların, bu günün özündə də davam etməsi, şübhəsiz ki, çox mətləblərdən xəbər verir və bu, təsadüfi deyildi. Məsələn, "Nuraz.com", "Abna.com", "Aran.news", "Qafqaz.ir", "Rasthaber.com", "Ru-clip.ru" və bu kimi digər saytların kimlərə məxsusluğu və nəyə görə Azərbaycana qarşı kampaniya aparmaları məlumdur. Bu resurslara xaricdəki hansı dairələr, şəxslər, separatçı qüvvələrin dəstək verməsi və apardıqları ideoloji təxribatın auditoriyası da aydındır.

Yeri gəlmişkən, burda bir məqamı xüsusi qeyd etmək lazımdır. Həmin günlərdə və sonralar separatçılar, radikal dindarlar, yalnız pula və məişət komfortuna işləyən "iaşə müxalifəti"nin sinxronlaşdırılmış ideoloji təxribatı faktı üzə çıxdı. Xaricdəki anti-Azərbaycan qüvvələrin mənfur niyyətlərini bəlkə də anlamaq olar. Ancaq daxildən onlara dəstək verən, poilis əməkdaşlarına qarşı qəddar cinayətə bəraət qazandırmağa çalışan, yaxud da xaricə qaçıb erməni maliyyəsinin girovuna çevrilənlərin xain canfəşanlığını heç cür başa düşmək mümkün deyil. Hadisələr göstərdi ki, bu cür anti-Azərbaycan təbliğatının Azərbaycan ictimai rəyinə heç bir təsiri yoxdur və ola da bilməz. Çünki Azərbaycan cəmiyyəti dövlətçiliyi ilə bir yerdədir və dövlət xalqının maraqlarının təminatçısı kimi çıxış edir.

Şübhəsiz ki, sosial şəbəkələrdə terror aktı, iğtişaş törədənlərin təqdir edilməsi, din pərdəsi altında qatı cinayətkarlara dəstək, habelə, hakimiyyət orqanlarına, dövlətə qarşı çağırışlar səsləndirilməsi qanunların kobud şəkildə pozulmasıdır. Çox təəssüflər ki, bəzi müxalif dairələr, nəzarətlərində olan xəbər saytları və sosial şəbəkələr vasitəsilə Gəncə şəhərində baş vermiş hadisələrdən yararlanmağa çalışırlar. Təbii ki, bunun qarşısını almaq üçün dövlətin üzərinə hansı vəzifələr düşürsə, onu da yerinə yetirir, hüquq-mühafizə orqanları belə çağırış edənlərə qarşı ciddi tədbir görməlidir və görür.

Beləliklə, Gəncədə baş verənlər, bir daha göstərdi ki, Azərbaycanda qarşıdurma və xaos yaratmaq istəyənlər heç vaxt çirkin məqsədlərinə nail ola bilməyəcəklər. Çünki müstəqilliyinin qısa tarixi ərzində Azərbaycan bu cür təxribatları dəfələrlə dəf edib. Digər tərəfdən, bu gün dünyanın aparıcı ölkələri ilə bir sırada dayanan, uğurlu inkişaf olub-keçən Azərbaycan dövləti ilə təzyiq və güc yolu ilə danışmaq, sadəcə, mümkünsüzdür. Azərbaycan dövləti və dövlətçiliyin isə bir məqsədi var: milli maraqlarımızı yetərincə qorumaq, müstəqilliyi əbədi və dönməz etmək. Ona görə də hər kəs, hər bir Azərbaycan vətəndaşı, hər zaman olduğu kimi, dövlətinin, onun liderinin - Prezident İlham Əliyev Cənablarının yanındadır və qətiyyətli milli iradə nümayiş etdirir. Heç bir xarici və daxili qüvvə bu qətiyyətin qarşısını ala bilmək iqtidarında olmayıb və olmayacaq da.

***Rövşən NURƏDDİNOĞLU***

# Dövlət Sərhəd Xidməti hərbi-vətənpərvərlik düşərgəsinin təşkili layihəsinə start verib

***Dövlət Sərhəd Xidmətinin fəaliyyətində gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsi və gənclər arasında dövlət sərhədinin mühafizəsi sahəsində qazanılmış nailiyyətlərin təbliği əhəmiyyətli yerlərdən birini tutur. Bu məqsədlə, mütəmadi olaraq, müxtəlif tədbirlər həyata keçirilir.***







Sərhədlərimizin mühafizə olunmasının əhəmiyyətinin daha dərindən dərk edilməsi, məktəbli gənclərin Vətən sərhədlərinə və sərhədçi peşəsinə hörmət ruhunda tərbiyə olunması məqsədi ilə Dövlət Sərhəd Xidməti yeni layihəyə - sərhəd zastavalarında gənclər üçün hərbi-vətənpərvərlik düşərgəsinin təşkili layihəsinə start vermişdir.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən qəzetimizə verilən məlumata istinadən, bu layihə çərçivəsində, ilk olaraq, Bakı şəhərinin Nəsimi rayonundakı orta məktəblərin 7-10-cu sinif şagirdləri üçün Şəki Sərhəd Dəstəsinin "Laza" sərhəd zastavasının bazasında "Sərhədçi" yay düşərgəsi təşkil olunmuşdur.

İyul ayının 11-də məktəblilər Ulu Öndər Heydər Əliyevin Nəsimi rayonu ərazisindəki abidəsi önünə tər çiçək dəstələri düzdükdən sonra avtobusla Qəbələ rayonunun səfalı guşəsində yaradılmış yay düşərgəsinə yola düşmüşlər.

İyul ayının 12-də "Laza" sərhəd zastavasında Dövlət Sərhəd Xidmətinin, Nəsimi rayon icra hakimiyyəti nümayəndələrinin, müəllim və şagirdlərin iştirakı ilə "Sərhədçi" hərbi-vətənpərvərlik düşərgəsinin təntənəli açılış mərasimi keçirilmişdir. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin gənc nəslin Vətənə məhəbbət, Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunmasına, sağlam böyüməsinə göstərdiyi diqqət və qayğı xüsusi vurğulanmışdır. Yay düşərgəsinin sərhəd zastavasının bazasında təşkil olunmasının əsas məqsədlərindən biri də gələcək əsgərlərin sərhəd zastavasındakı xidmət və məişət şəraiti, silah və texnika ilə yaxından tanış olmasından, onlarda sərhədçi peşəsinə marağın daha da artırılmasına şərait yaradılmasından ibarət olduğu qeyd edilmişdir.

Müəllimlərlə yanaşı, şagirdlərin təlim-tərbiyə işləri ilə sərhədçi zabitlər məşğul olacaq, meşəlik ərazidə silahlı sərhəd pozucularının saxlanılması və sərhəd zastavasına müşayiət edilməsi mövzusunda məşğələ, pnevmatik silahdan atıcılıq yarışı, avtomat silahının sökülüb-yığılması, narkotik maddə və partlayıcı vasitənin xidməti itlər tərəfindən axtarılıb tapılması, sıra hazırlığı məşğələsi və digər tədbirlər şagirdlərin istirahətini daha maraqlı, səmərəli və yaddaqalan edəcəkdir.

Yay düşərgəsində məktəblilərin mənalı istirahət etmələri üçün xüsusi tədbirlər planı hazırlanmış, məktəblilər arasında mini-futbol, şahmat, dama və stolüstü tennis yarışları, müxtəlif əyləncəli musiqili tədbirlərin, Azərbaycan kinomatoqrafçıları tərəfindən vətənpərvərlik mövzularında çəkilmiş filmlərin və Dövlət Sərhəd Xidmətinin fəaliyyətini əks etdirən videoçarxların nümayiş etdirilməsi nəzərdə tutulur. Yay düşərgəsi zamanı şagirdlər üçün Qəbələ rayonunun görməli yerlərinə, mədəniyyət ocaqlarına ekskursiyalar təşkil olunacaq, bu da məktəblilərin regionla yaxından tanış olmalarına imkan verəcəkdir.

***ZÜMRÜD***

# Bir bədəndə iki can: Türkiyə-Azərbaycan

## *Prezident Rəcəb Tayyib Ərdoğanın andiçmədən sonra Azərbaycana səfəri qardaşlığın və əbədi dostluğun göstəricisi oldu*



***Dost və qardaş ölkələr olan Türkiyə və Azərbaycanın iqtisadi-siyasi, hərbi, ticari, elmi-mədəni yaxınlığının artması bəzi ölkələri sanki narahat edir və onlar regionda yeni güc qovşağının yaranmasından qısqanclıq duyurlar. Xüsusilə də, erməni lobbisi və Ermənistana dəstək olan bəzi ölkələr Azərbaycan-Türkiyə əlaqələrinin güclənməsindən, bölgədə türk birliyinin hegemonluğunun yaranmasından açıq şəkildə qorxur, Qafqazda işğalçılıq və terrorçuluq siyasətinə zərbə vuracaq bu dövlətlərin siyasi nüfuzunun təsirində məhvə məhkum olacağından narahatlıq keçirirlər. Eyni zamanda, Avropanın bəzi gücləri Türkiyənin və Azərbaycanın strateji kommunikasiya qovşaqlarına, iqtisadi-coğrafi layihələrdə liderlik etmələrinə, perspektiv ortamüddətli dövrdə regionun sahibinə çevriləcəyindən təşviş keçirirlər.***

Tarix hazırda türk dövlətlərinin, Türkiyənin və Azərbaycanın xeyrinə işləyir, bu iki ölkə aparıcı statusda bölgənin xəritəsini cızan qətiyyətli addımlar atırlar. Bütün sahələrdə tarixi yaxınlıq və eyni milli dəyərlərdə birləşən Türkiyə və Azərbaycanın regional dominantlığı geniş miqyas alır. Həmişə bir-birinin köməyini, çətin sınaqlarda dəstəyini hiss edən Azərbaycanla Türkiyənin münasibətlərində hansısa maraqlara söykənən tərəfdaşlıq meyilləri olmayıb. Bu ölkələri bir-birinin problemlərinə diqqət və qayğı, səmimiyyət, qardaşlığın və milli birliyin genetik kodları birləşdirir.

Regionda ən geniş təhlükəsizlik şəbəkəsi sisteminin dayağı olan Bakı-Tbilisi-Ceyhan kəmərinin əsasını qoyan, "Cənubi Qaz Dəhlizi", TANAP, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars layihələrini gerçəkləşdirən, bu ölkələr digər strateji layihələri həyata keçirmək əzmində olmaqla, bütün türkdilli dövlətlərin sıx inteqrasiyasına zəmin yaradıblar. Bu gün ən nəhəng qaz və neft kəmərləri Azərbaycan-Türkiyə tranzit məkanı vasitəsilə dünyaya uzanmaqdadır və bunun hansı siyasi güc olması bütün dünya dövlətlərinə yaxşı məlumdur.

Dünya dövlətləri iki qardaş ölkənin böyük qətiyyət nümayiş etdirərək, əsrin ən nəhəng layihələrdən birini reallaşdırması təkcə bu regionun ölkələrinin enerji təhlükəsizliyi üçün deyil, ümumilikdə, bütün Avropa və Qərb dünyası üçün starteji əhəmiyyətə malik enerji sistemi kimi qiymətləndirdilər. Məhz bu amillər hər iki ölkənin dünya iqtisadiyyatına inteqrasiyasında mühüm rol oynayır və qarşılıqlı əməkdaşlığı nəzərdə tutan yeni-yeni layihələr dünya birliyində Azərbaycanın və Türkiyənin nüfuzunun və mövqeyinin güclənməsinə təkan verir. Bu gün hər iki ölkənin iqtisadiyyatı istər dövlət şirkətləri, istərsə də biznes qurumları üçün açıqdır.

Bu gün Türkiyə-Azərbaycan dostluğunun sarsılmaz bir formada inkişafı qarşıdakı illərdə regionda iki qardaş ölkənin timsalında güc mərkəzinin yaranacağını ehtiva edir. Elə Prezident Rəcəb Tayyib Ərdoğanın andiçmədən sonra Azərbaycana səfəri qardaşlığın və əbədi dostluğun göstəricisi oldu. Səfər çərçivəsində keçirilən görüşlər zamanı çıxış edən Prezident İlham Əliyev deyib ki, Türkiyə-Azərbaycan birliyi və dostluğu regional sabitlik üçün böyük fayda verir: "Əminəm ki, Türkiyənin və Azərbaycanın birgə səyləri ilə bölgədə sülh yaranacaq... Bizim əlaqələrimiz çoxşaxəlidir. Əlaqələrin təməlində xalqlarımızın, dövlətlərimizin birliyi, ortaq maraqları dayanır. Biz dostuq, qardaşıq. Türkiyə Prezidentinin seçkilərdən sonra birinci səfərini Azərbaycana etməsi bunu bir daha göstərir".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə qeyd edib ki, bizim Türkiyə-Azərbaycan əlaqələrimiz, bildiyiniz kimi, "Bir millət, iki dövlət" anlayışı əsasında inkişaf edir. Bu anlayışa bağlı olaraq əlaqələrimizi bu səviyyəyə çatdırdıq və irəliyə aparmaqda davam edəcəyik: "Təbii ki, ikitərəfli ticarət məsələsində hədəfimiz, inşallah, mövcud rəqəmi iki və üç dəfə artırmaqdır. Digər bir məsələ isə, xüsusilə, Dağlıq Qarabağ və Naxçıvanla bağlı problemləri aradan qaldırmaq üçün Türkiyə olaraq əlimizdən gələni etdik. Bu məsələni daim diqqət mərkəzində saxladıq, bundan sonra da saxlamaqda qətiyyətliyik. Naxçıvanla ölkəmiz arasında quru yolundakı problemlər həll edilmiş vəziyyətdədir. İndi yeni bir addım olaraq, - bu məsələ ilə əlaqədar daha əvvəl də İlham qardaşımla danışmışdıq, - lazım gələrsə, dəmir yolu məsələsini də həll etməklə, aradakı bu əlaqələri daha yüksək səviyyəyə çatdırmaq hər iki ölkəyə əlavə güc verəcək".

***"Səs" Analditik Qrupu***

# Türkiyənin Gəncədəki baş konsulu: Terroru və 10 iyul iğtişaşlarını qətiyyətlə pisləyirik

Türkiyənin Gəncədəki baş konsulu Orxan İşıq KİV nümayəndələri ilə görüşüb. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, baş konsul görüşdə 2016-cı ilin 15 iyul tarixində Türkiyədə yaşanan hadisələrdən, habelə iki il ərzində aparılan işlər nəticəsində ortaya çıxan fakt və məqamlardan danışıb. O çıxış edərək, 15 iyul dövlət çevrilişi cəhdinin Türkiyə Respublikasının tarixində çətin sınaq olduğunu, həmin hadisələr zamanı türk xalqının dövlətçiliyə və demokratiyaya sadiqlik nümayiş etdirdiyini bildirib. Baş konsul ölkəsində 2016-cı ildə baş vermiş dövlət çevrilişi cəhdi zamanı Azərbaycan dövlətinin və xalqının Türkiyənin yanında olduğunu deyib. 15 iyul hadisələri zamanı 250 nəfərdən çox insanın həlak olduğunu, 1000-dən çoxunun isə yaralandığını xatırladan Orxan İşıq dövlət çevrilişi cəhdinin ağır nəticələrindən danışıb. Vurğulayıb ki, iki il əvvəl Türkiyədə baş verən hadisələr 30-40 il bundan əvvəldən ölkənin içərilərinə sızmış terrorçular tərəfindən hazırlanıb ki, onlar da Amerikanın Pensilvaniya ştatında yaşayan Fətullaha bağlanır.



Orxan İşıq qeyd edib ki, xeyriyyə təşkilatları və təhsil müəssisəsi açmaq adı ilə öz çirkin əməllərini gizlədən FETO qruplaşması, dünyanın 160 ölkəsində 1000-dən çox məktəb, iş yeri açıb, Türkiyədə dövlət strukturlarına öz insanlarını yerləşdirib. Baş konsul Amerika istisna olmaqla digər ölkələrdə həmin məktəblərin yarıdan çoxunun bağlandığını bildirib.

Türkiyənin Gəncədəki baş konsulu iyulun 3-də şəhər icra hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı planlaşdırılan sui-qəsdi, polis serjantının yaralanmasını, iyulun 10-da isə şəhərin mərkəzində bir qrup dini radikal şəxs tərəfindən törədilən iğtişaşların qarşısını alarkən iki yüksəkrütbəli polis zabitinin şəhid olmasını, bir neçə polis əməkdaşının yaralanması ilə nəticələn hadisələri qətiyyətlə pisləyib. Yaralılara şəfa, ölənlərin yaxınlarına başsağlığı verərək, Allahdan səbir diləyib.

# Səfir Erkan Özoral: Azərbaycan və Türkiyənin həyata keçirdiyi birgə layihələr dünyada böyük rezonans yaradır

Bir neçə gündən sonra Fəthullahçı terror təşkilatının (FETÖ) Türkiyədə dövlət çevrilişi cəhdinin iki ili tamam olur. Ötən iki il ərzində FETÖ-nün dövlət çevrilişi cəhdləri ilə bağlı xeyli faktlar aşkarlandı, terror təşkilatının dövlətin hansı strateji nöqtələrində yer aldığı aşkarlandı. FETÖ Türkiyədə hakimiyyəti ələ keçirmək üçün qırx il ərzində gizli fəaliyyətlə məşğul olub. Öz adamlarını mühüm vəzifələrə təyin etdirməyə nail olan təşkilat 2016-cı il iyulun 15-də bütövlükdə hakimiyyəti ələ keçirməyə cəhd etdi. Ancaq terrorçular qarşılarında heç vaxt duruş gətirə bilməyəcək qüvvə ilə - türk xalqı ilə qarşılaşdılar. Öz liderinin - Prezident Rəcəb Tayyib Ərdoğanın çağırışından sonra küçə və meydanlara axışan türk xalqı terror təşkilatının dövlət çevrilişi cəhdinin qarşısını mətanətlə aldı və demokratiyaya sadiqliyini nümayiş etdirdi. Həmin gecə Türkiyə terrorla mübarizədə 251 şəhid verdi. 2016-cı il 15 iyul gecəsində türk xalqı növbəti dəfə qəhrəmanlıq dastanı yazdı. Bu, Türkiyə və dünya tarixində mühüm yeri olan hadisədir.

Bu fikirləri Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral iyulun 12-də AZƏRTAC-a müsahibəsində deyib. FETÖ-nün öz niyyətini həyata keçirmək üçün xaricdən də dəstək aldığını vurğulayan səfir diqqətə çatdırıb ki, bu barədə faktlar məhkəmə proseslərində tam sübuta yetirilir: "Terror təşkilatının fəaliyyəti təkcə dövləti ələ keçirmək olmayıb. FETÖ xalqın dini etiqadından sui-istifadə edib, qırx il ərzində təhsil adı altında gənclərə təsir göstərərək özlərinə tərəfdar, mütəxəssis ordusu yetişdirib, onları yüksək vəzifələrə təyin etmək üçün müxtəlif üsullara əl atıb. Belə ki, imtahan suallarını oğurlayıb təşkilatın üzvlərinə verməklə onların müxtəlif dövlət qurumlarında, orduda və polis sistemində vəzifələrdə irəli çəkilmələrinə şərait yaradıblar. Bununla yanaşı, terror təşkilatı ilə əlaqəsi olmayan şəxslərin tutduqları vəzifələrdən və ya imtahanlardan uzaqlaşdırılmalarına da nail olublar. Hazırlanan bu tərəfdarlar Türkiyədə hakimiyyəti ələ keçirmək əmrini icra etməyə başlayıblar. Bütün bu məsələlərlə bağlı hüquqi prosedur bu gün Türkiyədə davam edir, xeyli sayda terrorçu mühakimə edilərək layiqli cəzalarını alıb. Bununla da demək olar ki, terror təşkilatına sarsıdıcı zərbə vurulub.

Diplomat bildirib ki, Türkiyə FETÖ-nün xaricdə də fəaliyyətinin qarşısını almaq üçün digər dövlətlərlə fəal əməkdaşlıq edir. Belə ki, bəzi ölkələrdə FETÖ-yə məxsus təhsil ocaqlarının bir hissənin fəaliyyəti dayandırılıb, digərləri isə Türkiyə Təhsil Nazirliyinin tərkibinə verilib. Çox şadıq ki, Azərbaycan FETÖ ilə mübarizədə Türkiyəyə ilk andan fəal dəstək verdi və hətta bizim xahişimizi gözləmədən lazımi addımları atdı. Azərbaycan FETÖ ilə mübarizədə digər ölkələrə nümunədir. Həmin gecə azərbaycanlı qardaşlarımız Bakıda Türkiyə səfirliyinin qarşısına gələrək bizə dəstəklərini ifadə etdilər.



Bu dəstək bu gün də eyni qətiyyətlə davam etdirilir. Bunu iki gün əvvəl Azərbaycanda səfərdə olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da qeyd etdi və buna görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Hazırda Türkiyənin eyni vaxtda bir neçə terror təşkilatı ilə mübarizə apardığını vurğulayan diplomat bildirib ki, türk xalqı bu gün başda FETÖ olmaqla PKK, İŞİD, o cümlədən ölkə daxilində və xaricində olan düşmənləri ilə qarşı-qarşıyadır. Türkiyə dövlətinin əsas məqsədi sonuncu terrorçu məhv edilənədək mübarizədən çəkilməməkdir. Terror adətən xaricdən himayə olunur. Heç bir terror təşkilatı xaricdən böyük dəstək almadan Türkiyə ilə mübarizə apara bilməz. Türkiyənin yerləşdiyi strateji mövqe həmişə kənar qüvvələrin diqqətini cəlb edib. Biz bunu çox yaxşı bilirik və ona görə də düşmənlərimizə qarşı mübarizəni qətiyyətlə davam etdiririk.

Səfir müsahibəsində Türkiyə-Azərbaycan əlaqələrindən, ölkələrimizin birgə həyata keçirdiyi layihələrdən də danışıb. O, qardaş ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyini vurğulayıb. Bildirib ki,

həyata keçirdiyimiz birgə layihələr dünyada böyük rezonans yaradır. Məsələn, ötən ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolu xətti istifadəyə verildi. Bu ilin iyununda Türkiyənin Əskişəhər şəhərində TANAP layihəsinin açılışı oldu. Bakı-Tbilisi-Qars dəmir yolu üç ölkəni deyil, eyni zamanda, Şanxay və Londonu birləşdirir. Çindən Avropanın istənilən ölkəsinə daşınan yük gəmi yolu ilə 70 gün ərzində gedib çatır. Ancaq bu dəmir yolu vasitəsilə proses 10-11 gün ərzində mümkün olacaq. Bununla yanaşı, bu dəmir yolu turizmin inkişafına da müsbət təsir edəcək. Artıq bütün insanlar Bakı-Tbilisi-Qars dəmir yolu ilə sərnişinlərin nə vaxt daşınacağı ilə maraqlanır. Bu layihə, eyni zamanda, iki dövlətin bir millətini bir-birilərini daha yaxından tanımalarına imkan verəcək. Hazırda hər iki ölkə istər region, istərsə də dünya üçün mühüm əhəmiyyət daşıyan TAP layihəsinin reallaşması istiqamətində çalışırlar. TANAP vasitəsilə Azərbaycan qazı Yunanıstan, İtaliya və Albaniyadan keçməklə Avropaya ixrac ediləcək. Artıq layihənin Yunanıstan və Albaniya hissəsində işlər başa çatmaq üzrədir. İtaliya hissəsində bir qədər ləngimə qeydə alınsa da, Azərbaycan və Türkiyə layihənin tezliklə başa çatması üçün işləri intensivləşdiriblər. Bu layihə ilə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolu daha da artacaq. Enerji layihələrindən başqa, Azərbaycan və Türkiyə arasında insan kapitalı və nəqliyyat sektoru sahələrində də mühüm layihələr reallaşdırılacaq. Qardaş ölkələrimiz bundan sonra daha böyük layihələrin reallaşması üçün birgə fəaliyyətlərini artıracaqlar. Yaxın zamanlarda İzmirdə "Star" neft-kimya zavodu açılacaq, Azərbaycan bununla Türkiyədə böyük xarici investora çevriləcək.

Bütün bunlar təkcə strateji əməkdaşlığın deyil, Azərbaycan-Türkiyə qardaşlığının nəticələridir. Hər kəs yaxşı bilir ki, Azərbaycanın gücü Türkiyənin, Türkiyənin gücü Azərbaycanın gücüdür. Biz birlikdə daha güclü olacağıq.

# Hikmət Hacıyev: Ermənistanın bu hərəkəti BMT-nin üzv dövlətlərinə və Nizamnaməsinə qarşı hörmətsizlikdir

*Ermənistan KİV-nin Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin hər hansısa bir sənədinin BMT-nin saytında yerləşdirilməsi barədə xəbəri yalan və dezinformasiyadan başqa bir şey deyildir. Bu kimi ucuz vasitələrlə Ermənistanın yeni hakimiyyəti ilk növbədə Ermənistan ictimaiyyətini aldatmağa çalışır. Bu kimi yalanlar ifşa olunduqca Ermənistanın dövlət media resursları xəbərin başlığını redaktə edərək yeni formada verməyə çalışırlar.*



AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev KİV-lərə açıqlamasında deyib. H.Hacıyev vurğulayıb ki, Ermənistanın BMT yanında daimi nümayəndəliyi üzv dövlət olaraq məktubla müraciət edir və bu məktubun əlavəsi kimi qondarma rejimə aid hər hansısa bir kağız parçasını əlavə edir. Ermənistanın bu hərəkəti BMT üzv dövlətlərinə, BMT nizamnaməsinə hörmətsizlikdir. "Təyinatına gəldikdə isə bu kimi kağız parçaları BMT-də ətraf mühiti qorumaq üçün makulatura məqsədilə istifadə olunur. Azərbaycanın BMT yanında daimi nümayəndəliyi BMT-nin katibliyi və BMT üzv dövlətlərini Ermənistanın bu kimi qeyri-ciddi fəaliyyəti barədə məlumatlandırıb" , - deyə H.Hacıyev əlavə edib.

# Musa Qasımlı: "Aİ ilə Azərbaycan arasında geniş əməkdaşlıq mövcuddur"

"Azərbaycan Prezidenti İlham Əliyevin Brüsselə səfəri zamanı Avropa İttifaqında və NATO-da keçirdiyi görüşlər ölkəmiz üçün böyük əhəmiyyət kəsb edir". Bunu SİA-ya açıqlamasında millət vəkili Musa Qasımlı deyib. Onun sözlərinə görə, Avropa İttifaqı ilə Azərbaycan arasında geniş əməkdaşlıq mövcuddur: "Təbii ki, bu əməkdaşlıq tərəflərə fayda verir. Azərbaycan NATO-un sülhməramlı əməliyyatlarında iştirak edir. Eləcə də bir çox proqramlarının iştirakçısıdır. Hesab edirəm ki, cənab Prezidentin Brüsselə



səfəri həm Avropa İttifaqı, həm də NATO ilə münasibətlərdə yeni bir səhifəni təşkil edir.

Azərbaycan Prezidentinin və Ermənistan baş nazirinin Brüsselə səfəri güclü, özünə güvənli, prinsipial, böyük hörmət sahibi olan Azərbaycanın fonunda cılız, heç kimə lazım olmayan, olduqca zəif Ermənistanın obrazını açıq nümayiş etdirdi. Bu reallıq Prezident İlham Əliyevin Azərbaycanın milli maraqlarına uyğun yürütdüyü məqsədyönlü və prinsipial siyasi kursun nəticəsidir".

## Binəli Yıldırım Türkiyənin Dövlət Şərəf Medalı ilə təltif olunub

Ötən gün Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri seçilmiş Binəli Yıldırım Dövlət Şərəf Medalı ilə təltif olunub. Bu münasibətlə Ankarada təşkil olunan mərasimdə mükafatı TBMM-in sədrinə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan təqdim edib. Rəcəb Tayyib Ərdoğan parlamentin sədri ilə səmimi dostluq münasibətlərindən, Binəli Yıldırımın ölkəsinə və xalqına sədaqətindən, yüksək insani keyfiyyətlərindən danışıb. Dövlət başçısı əminliklə bildirib ki, Baş nazir işlədiyi dövrdə olduğu kimi, Türkiyə Böyük Millət Məclisinin sədri olduğu müddətdə də Binəli Yıldırım Türkiyə dövləti naminə fəaliyyətini davam etdirəcək.

# Suraxanı rayonunda cari ilin I yarısının yekunları müzakirə olunub

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqindən irəli gələn vəzifələr Suraxanı rayon icra hakimiyyəti başçısı yanında Şuranın geniş iclasında ətraflı müzakirə olunmuş, qarşıda duran vəzifələr konkretləşdirilmişdir.***






İclasda məruzə ilə çıxış edən rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov vurğulayıb ki, ölkə əhalisinin yüksək fəallığı şəraitində, mütəşəkkil, şəffaf şəkildə keçirilən, insanların yüksək əhval-ruhiyyə ilə iştirak etdikləri 11 aprel prezident seçkiləri Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin möhtəşəm və inamlı qələbəsi ilə başa çatdı və bir daha təsdiq etdi ki, Cənab İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi on beş il ərzində xalqın böyük hörmət və rəğbətini qazanmışdır. Xalqımız növbəti 7 ildə də Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevlə irəliləyəcəkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin iclasındakı çıxışında səsləndirdiyi başlıca müddəalar barədə ətraflı məlumat verən İ.Abbasov bildirib ki, dövlət başçısı tərəfindən ölkədə bütün istiqamətlər üzrə aparılan islahatlar, irəli sürülən təşəbbüslər sabitlik, əmin-amanlıq şəraitində reallaşıb, əldə edilən uğurlar ölkəmizi daha da gücləndirib və Azərbaycanın bütün regionlarının inamlı inkişaf dinamikası saxlanılıb.

İ.Abbasov bildirib ki, mayın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Qaraçuxur qəsəbəsində "ATEF Şirkətlər Qrupu" MMC tərəfindən yüksək gərginlikli avadanlıqlar zavodunun açılışı olmuşdur.

Yararsız və ya qəzalı vəziyyətdə olan binalarda yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, şəhərin ümumi görünüşünə xələl gətirən yaşayış binalarının və digər obyektlərin sökülərək, yeni yaşayış binalarının inşa edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin göstərişinə və Nazirlər Kabinetinin müvafiq Qərarına uyğun olaraq, "Etibarlı" MTK tərəfindən Qaraçuxur qəsəbəsi, Əhməd Mehbalıyev küçəsi 34 və 36 ünvanda yerləşən istismara yararsız ikimərtəbəli 16 mənzilli yaşayış binalarının yerində 12 və 14 mərtəbəli, ikigirişli yaşayış binasının tikintisinə başlanılmış və hal-hazırda binanın 2-ci girişinin 12-ci mərtəbəsində tikinti-quraşdırma işləri aparılır, 1-ci girişinin mərtəbələrində dəmir-beton işləri başa çatdırılıb, hörgü və suvaq işləri aparılır.

Hesabat dövrü ərzində Suraxanı rayonunda RİH-in təşkilatçılığı və digər qurumların iştirakı ilə bir çox ictimai-siyasi tədbir keçirilmiş, dövlət bayramları və əlamətdar günlər qeyd edilmişdir. Ənənəvi olaraq, rayonda əksər ictimai-siyasi tədbirlər Suraxanı rayonu Heydər Əliyev Mərkəzinin imkanlarından geniş istifadə olunmaqla həyata keçirilir. İndiyədək Heydər Əliyev Mərkəzinin fəaliyyəti ilə 90 minə yaxın yerli və xarici ziyarətçi tanış olmuş, mərkəzin Elektron Kitabxanasının xidmətindən 16 mindən artıq istifadəçi faydalanmışdır. Suraxanı rayonu Heydər Əliyev Mərkəzi ilə rayon məktəbliləri də davamlı tanış olur, mərkəzin imkanlarından faydalanırlar. Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar rayonda silsilə tədbirlər keçirilmişdir. Azərbaycanın görkəmli oftalmoloq-alimi, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95-ci ildönümü münasibəti ilə rayonda silsilə tədbirlər keçirilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi rayonda geniş qeyd olunmuşdur.

İclasda Milli Məclisin deputatı Ağacan Abıyev iştirak edib.

Şuranın geniş iclasında çıxış edənlər uğurlara və problemlərə diqqət yetirmiş, qarşıda duran vəzifələrlə bağlı fikir və təkliflərini söyləmişlər. Sonda rayonun ictimai həyatında və digər sahələrdə fəal iştirakına görə, bir qrup şəxs rayon icra hakimiyyəti başçısının Fəxri Fərmanı ilə təltif edilmişlər.

***ZÜMRÜD BAYRAMOVA***

# İran Azərbaycanda özəl xəstəxanalardan birini icarəyə götürə bilər

***İran Azərbaycanda özəl xəstəxanalardan birini icarəyə götürə bilər. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev Azərbaycanda səfərdə olan İranın səhiyyə, müalicə və tibbi təhsil naziri Seyid Həsən Qazizadə Haşeminin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***



Nazir Şahin Mustafayev vurğulayıb ki, Azərbaycan və İranın dövlət başçılarının yüksək səviyyəli səfərlərinin, aparılan danışıqların nəticəsidir ki, ölkələrimiz arasında qarşılıqlı münasibətlər yüksələn xətlə inkişaf edir. Ölkələrimiz iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən ticarət, nəqliyyat, səhiyyə, sənaye, energetika, kənd təsərrüfatı, turizm, gömrük və s. sahələrdə uğurla əməkdaşlıq edirlər.

Ölkəmizdə yaradılan sənaye parkları və məhəllələri, yaradılmış infrastruktur və əlverişli imkanlar barədə məlumat verən iqtisadiyyat naziri bildirib ki, Pirallahı Sənaye Parkında İranla birgə "Caspian Pharmed" əczaçılıq məhsullarının istehsalı zavodunun yaradılması işləri davam etdirilir. Bununla belə, əczaçılıq məhsullarının istehsalı sahəsində İranın digər dərman istehsalı müəssisələri ilə də əlaqələr qurula bilər.

Azərbaycanın İranla digər sahələrlə yanaşı, səhiyyə sahəsində də əməkdaşlığa önəm verdiyini vurğulayan iqtisadiyyat naziri Şahin Mustafayev qeyd edib ki, İranın tibb sahəsində ixtisaslaşmış bir sıra ali təhsil müəssisələrinin rəhbərləri Azərbaycanda səfərdə olub, Azərbaycanın Tibb Universiteti və Təbriz Tibb Universiteti arasında memorandum imzalanıb.

Görüşdə Azərbaycanda birgə dərman istehsalı, müalicə işinin birgə təşkili, səhiyyə sahəsində elmi-tədqiqatların aparılması, tibbi kadrların hazırlanması, İranın Azərbaycanda özəl xəstəxanalardan birini icarəyə götürməsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub. İranın səhiyyə, müalicə və tibbi təhsil naziri Seyid Həsən Qazizadə Haşemi Azərbaycana səfərindən məmnunluğunu ifadə edərək, İranda səhiyyənin, tibbi təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirlər və qazanılmış uğurlar barədə məlumat verib. Seyid Həsən Qazizadə Azərbaycanla səhiyyə sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb, dərman preparatlarının istehsalı üzrə müştərək müəssisələrin yaradılmasının önəmini qeyd edib.

# "Terrorçunu müdafiə edənlər sonda polisə əl qaldırdılar"

## "Bu hadisələrin xaricdən təşkil və idarə olunmasına zərrə qədər şübhə yoxdur"

***Gəncədə icra hakimiyyətinin başçısına qarşı edilən cinayət hadisəsindən sonra iki polis zabiti də qətlə yetirildi. Bu radikal dini cərəyanların ölkəmizdə ictimai-siyasi sabitliyi pozmaq, vətəndaş qarşıdurması yaratmaq üçün atdıqları pozucu addımlardır. Söhbət etdiyimiz müsahiblərimiz pozucu radikal dini cərəyanların arxasında xarici maraqlı dairələrin, xüsusilə də, erməni lobbisinin dayandığını bildirdilər.***

### Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli: "Həmin ünsürlərin xaricdəki terrorçu qruplardan heç bir fərqi yoxdur"



- Vəhdət partiyasının sədri və millət vəkili olaraq, bu hadisəni qəti şəkildə pisləyirəm. Partiyamız və özümüz, birmənalı tərzdə dövlətimizin və Prezidentimizin yanındayıq. Azərbaycanda möhtəşəm şəkildə Xalq Cümhuriyyətinin 100 illiyi münasibəti ilə respublikamızda və xarici ölkələrdə tədbirlər təşkil olundu və Bakıda hərbi parad keçirildi. Ordumuz uğurlu hərbi əməliyyatlar həyata keçirməklə, Cocuq Mərcanlıdan sonra 11 min hektar ərazini, o cümlədən, Şərur rayonundakı Günnüt kəndini yağı düşməndən azad etdi. Bütün bu uğurlarımız bizi istəməyən yerli və xarici qüvvələri ciddi narahat edir. Həmin məkrli qüvvələrin gözü götürmür ki, Azərbaycan bu cür gücə, qüdrətə, sabitliyə malikdir, insanlar xoşbəxt və firavan həyat yaşayır. Pozucu aktlarla Azərbaycanı daxildən sarsıtmaq istəyirlər. Azərbaycanda sabitlik Azərbaycan xalqının ən böyük sərvətidir. Hər zaman dövlətimiz dindarlarımızın yanında olub. Lakin radikal dindarlar xaricdən verilən tapşırıqlara uyğun olaraq öz məkrli maraqlarını təmin etməyə çalışırlar. Həmin ünsürlərin xaricdəki terrorçu qruplardan heç bir fərqi yoxdur. Hər kəs bilir ki, polis Azərbaycan gerbini daşıyır və Azərbaycan dövlətinin simvoludur. Yəni o gerb Azərbaycan polisinin üstündə gəzir. Polisə qarşı əl qaldırmaq vəhşilikdir. Göründüyü kimi, bəzi insanları öz tərəflərinə çəkib, cinayət əməlləri törətməyə məcbur edənlər var. Bir sözlə, Azərbaycanın bütün siyasi partiyalarına, QHT-lərə, KİV-lərə və aktiv vətəndaşlarına müraciət edərək, bildirmək istəyirik ki, dövlətimizin yanında olsunlar və təxribatlara uymasınlar. Başa düşsünlər ki, Azərbaycan dövləti istənilən təxribatın qarşısını almağa qadirdir. Belə halların baş verməsi düşməni sevindirir, dostu narahat edir. Bu baxımdan da, hamını ayıq-sayıq olmağa və belə halları qətiyyətlə pisləməyi, dövlətimizin yanında olmağa çağırıram.

### "Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev: "Polis zabitlərinə əl qaldıranlar terrorçu kimi qəbul edilməlidir"



- Bu gün bizə güclü Azərbaycan lazımdır. Beynəlxalq hüququn ayaqlar altına atıldığı, güclülərin zəifləri əzib keçdiyi dünyada müstəqilliyimizi qorumaq üçün başqa seçimimiz yoxdur. Bu, artıq danılmaz bir həqiqətdir ki, ayaqda durmaq üçün mütləq güclü olmalıyıq. Şükürlər olsun ki, neçə illərdir Azərbaycan dövlətinin daha da güclü olması üçün lazım olan addımlar atılır. İqtisadiyyatımız inkişaf etdirilir, əhalinin sosial təminatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır, ordumuz ildənilə güclənir. Elə bu yaxınlarda keçirdiyimiz hərbi parad hamımızı çox qürurlandırdı. Problemlərimiz yoxdurmu? Əlbəttə ki, var. Hər gün məişətimizdə nə qədər qanqaraldacaq hallarla rastlaşırıq. Bəzən məmur məsuliyyətsizliyindən qaynaqlanan çətinliklərimiz də olur. Vətəndaşlarımızın hamısı da yağbal içində yaşamır. Sosial problemlərimiz hələ də var, bu problemin aradan qaldırılması üçün dövlətin nəzərdə tutduğu proqramların icrasında neqativliklər də. Amma bütün bunlar bizə dövlətimizi sevməyə mane ola bilməz. Amma çox təəssüf ki, bəzilərimiz başqa yol tuturlar. Xaricdən körüklənən nifrət, dövlətə inamsızlıq fonunda guya ölkədə hər şeyin pis olması görüntüsü yaradılır. Bunun üçün müasir informasiya texnologiyalarının bütün imkanlarından istifadə edilir. Gəncədə icra başçısına qarşı silahlı hücumu pisləyərkən də, bu meyillərin şahidi olduq. Xüsusən də, sosial şəbəkələrdə bəlli bir qrup icra başçısına - dövlətin qanuni təmsilçisinə qarşı silah qaldıran birini qəhrəman kimi təqdim etməyə cəhd göstərdi. Deyəndə ki, "bu, açıq-aşkar cinayətdir, dövlətə qarşı qanunsuz bir çıxışdır, bunun arxasında duranlar var", bizi nələrdə ittiham etmədilər. Nəticə də dünən axşam Gəncədə baş verənlərdir. Terrorçunu müdafiə edənlər sonda polisə əl qaldırdılar. İki polis zabiti keçmişi qaranlıq, müxtəlif cinayətlərdə ittiham olunanlar tərəfindən qətlə yetirildilər. Necə deyərlər, "xoruzun quyruğu" göründü. Məlum oldu ki, bu adamların məqsədi heç də ədalətsizliyə qarşı mübarizə deyil. Əsas məqsəd Azərbaycanı çalxalamaq, insanları öz müstəqil dövlətlərinə qarşı qaldırmaq, Azərbaycanı Suriya və Livan kimi gücsüz dövlətə çevirməkdir. Daha doğrusu, bu adamların beynini yuyan, onları manqurta çevirən böyük güclərin məqsədi budur. Qardaşlar, bacılar, sizin təklif etdiyiniz və ya sizə təklif olunan mübarizə yolu deyil. Bu yolla ölkədə heç bir problem həll olunmayacaq. Dünyanın heç bir ölkəsində bu cür münasibətlərlə dövlətlər ideallaşmayıb, sistem demokratikləşməyib. Bu yolla dövlətləri dünya xəritəsindən siliblər, Suriya kimi döyüş poliqonuna çeviriblər. Liviya kimi 3 yerə bölüblər, İraq kimi əlacsız duruma salıblar. Ona görə də, oyuna getməyin. Onu da, birmənalı tərzdə başa düşmək lazımdır ki, bu ssenariləri Azərbaycanda reallaşdırmaq mümkün deyil. Bizim xalq çox ayıq və siyasi baxımdan savadlıdır. İnsanları bir yerə qədər aldatmaq, yoldan çıxarmaq olar. Amma elə ki, xoruzun quyruğu görünür, vətəndaşlarımız ayılırlar, kimlərinsə onlardan istifadə etməsinə imkan vermirlər. Gəncə hadisələri ilə bağlı da bunu açıq şəkildə gördük. 2 gün əvvəl Yunis Səfərovu qəhrəman elan edənlərin çoxu dünən axşam statuslarını silməyə, mövqelərini dəyişməyə başladılar. Oyuna çəkildiklərini anladılar. Prezidentin köməkçisi hörmətli Əli Həsənovun da dediyi kimi, Gəncədə yaranmış həssas dönəm cəmiyyətimizin dövlətin ətrafında daha sıx birləşməsini tələb edir. Bu hadisələr bizi daha da çevikləşdirməli və reaksiya vermə imkanlarımızı artırmalıdır. Dövlətin qanuni təmsilçisinə, polis zabitlərinə əl qaldıranlar terrorçu kimi qəbul edilməli, nəinki onların özləri, dəstəkçiləri də aşkarlanıb, qanunun yol verdiyi ən sərt şəkildə cəzalandırılmalıdırlar. Yaranmış situasiya bütün bunların qısa müddət ərzində edilməsini tələb edir və heç bir şübhəm yoxdur ki, hüquq-mühafizə orqanları, dövlətin müvafiq strukturları bu işi görəcəklər. Azərbaycanı güclü görmək istəyiriksə, müstəqilliyimizin möhkəmləndirilməsi əsas amalımızdırsa, bunu mütləq etməliyik. Hər şey göz qabağında, hər şey açıq-aşkardır. Müstəqil dövlətimizə və dövlətçiliyimizə qarşı separatçıların, radikal dindarların, yalnız pula və məişət komfortuna işləyən "iaşə müxalifəti"nin sinxronlaşdırılmış ideoloji təxribatı ilə üz-üzəyik. Bu təxribatın əsas fiqurları da xarici ölkə vətəndaşları, beyinləri yuyulmuş manqurtlar və qatı cinayətkarlardır. Onlar "uf" deməden icra başçısını güllələyə və polis zabitlərini bıçaqlaya bilirlər. Məqsəd isə ölkədəki ictimai-siyasi sabitliyi pozmaq, rahat və əmin-amanlıq şəraitindəki həyatımızı korlamaqdır. Zərrə qədər də şübhəniz olmasın ki, onların məqsədi yoxsulluqdan əziyyət çəkənləri bu durumdan çıxarmaq, haqsızlıqla üzləşənlərin problemlərini həll etmək və az qazananların daha çox pul qazanmalarına imkan yaratmaq deyil. Onların məqsədi yalnız və yalnız dağıtmaq, qan tökmək və xaos yaratmaqdır. Buna görə də, insanlarımız ayıq-sayıq olmalı, kimsənin isti ocağımıza su səpməsinə imkan verməməlidirlər. Bu dövlət, 100 il əvvəl qurucu babalarımızın yoxdan var etdikləri respublikanı göz-bəbəyimiz kimi qorunmalıdır. Azərbaycanın daha da güclü olması üçün əlimizdən gələni etməliyik. Uca Yaradan günü-gündən güclənən müstəqil Azərbaycanımızı qorusun!

### "Yurddaş" partiyasının sədri Mais Səfərlidir: "Biz Prezidentimizin əsgərləriyik"



- Bildiyiniz kimi, Azərbaycan çox böyük bir uğura imza atıb. 25 ölkədən biridir ki, möhkəm əsaslara söykənən ictimai-siyasi sabitliyə və iqtisadi inkişafa malikdir. Dünyada 200 dövlət arasında 25-ində olan əmin-amanlıq və sabitlik digərlərinə nümunədir. Azərbaycan da 25 dövlətdən biridir. Çox təəssüflər olsun ki, Azərbaycanı istəməyən xaricdəki bəzi dairələr burdakı əlaltıları vasitəsi ilə bu sabitliyi pozmağa cəhd göstəriblər və çalışırlar ki, bu stabilliyi pozsunlar. Azərbaycanın apardığı müstəqil siyasət onların ürəyincə deyil. Bir sıra dairələr var ki, xaricdə Azərbaycan Prezidentinin Azərbaycanın milli maraqlarına uyğun apardığı siyasətə qısqanclıq hissi ilə yanaşırlar və elə hesab edirlər ki, Azərbaycan kiçik dövlətdir və kiçik dövlətlər də hansısa böyük akulalara tabe olmalıdır. Amma Azərbaycan Prezidenti bu ənənəni pozub və bu illər ərzində sübut edib ki, Azərbaycan bütün dövlətlərlə bərabərhüquqlu dövlətdir. Tərəfdaş ölkələrlə bərabərhüquqlu münasibətlər qurulmalıdır və qururlar. Bu da bir sıra dairələrin xoşuna gəlmir və onlar çalışırlar ki, Azərbaycanda ahəngi pozsunlar və bunun üçün çoxçeşidli vasitələrdən istifadə edirlər. Gəncədə baş verən hadisələr də bu məsələdən qaynaqlanır. Azərbaycan dövlətinin, ordusunun, iqtisadiyyatının inkişafından qısqanclıq və narahatlıq keçirən qüvvələr Azərbaycana qarşı pozucu planlar hazırlayıblar. Amma Azərbaycan dövlətinin və hakimiyyətinin güclü olması nəticəsində belə planların qarşısı alınıb. "Yurddaş" partiyası Gəncədə baş verən hadisəni pisləyir və iştirakçıları, eləcə də, onun arxasında duran qüvvələri lənətləyir. Biz hesab edirik ki, bu, Azərbaycan dövlətçiliyinə qarşı yönələn bir aksiyadır. "Yurddaş" partiyası, digər məsələlərdə olduğu kimi, bu məsələdə də dövlətimizin, Prezidentimizin yanındadır. Biz Azərbaycanda stabilliyin pozulmaması, qorunub-saxlanması üçün Prezidentin əsgərləriyik və Prezidentimizin hər hansı tapşırıqlarını yerinə yetirməyə hazırıq. Gəncədə şəhid olmuş polis zabitlərinin ailələrinə başsağlığı veririk və bütün millətimizi bir olmağa çağırırıq. Azərbaycanda stabilliyin pozulmasına yol vermək olmaz. Azərbaycanı Suriya, Əfqanıstan və İraq kimi bir məkana çevirmək istəyirlər. Amma onların bu istəkləri heç vaxt baş tutmayacaq. Azərbaycan xalqı öz Prezidenti İlham Əliyevin arxasında dayanır. Xalq- hakimiyyət birliyi xarici qüvvələrin istənilən məkrli planlarının qarşısını alacaq.

### "Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas: "Bu hadisələrin xaricdən təşkil və idarə olunmasına zərrə qədər şübhə yoxdur"



- Gəncə şəhər icra hakimiyyətinin başçısı E.Vəliyevə qarşı törədilmiş terror hadisəsindən çox az sonra, yəni iyul ayının 10-da şəhərdə icazəsiz mitinq keçirmək istəyən 150-200 nəfərlik başıpozuq dəstənin hərəkətlərinin qarşısını alan, şəhərdə ictimai-asayişin qorunması üçün öz vəzifə borcunu yerinə yetirən iki zabitin kəsici-deşici alətlərlə qətlə yetirilməsi hadisəsini, ilk növbədə, xarici düşmənlərin təşkilatçılığı ilə ölkəmizdə sabitliyi pozmaq üçün uzun müddət hazırlanmış, dini pərdə ilə maskalanmış kriminal- radikal qrupların fəaliyyəti hesab edirəm. Bu hadisələrin xaricdən təşkil və idarə olunmasına zərrə qədər şübhə yoxdur. Hadisələrin gedişindən aydın hiss olunur ki, Azərbaycanın regionda sabitlik adasına çevrilməsi, onun siyasi, iqtisadi, hərbi gücünün və nüfuzunun durmadan artması, xüsusən, iyunun 26-da ordumuzun yaranmasının 100 illiyi ilə bağlı "Azadlıq" meydanında təşkil olunan hərbi paradda nümayiş etdirilmiş hərbi texnika və silahların gücündən vahiməyə düşmüş qonşu düşmən dövlətlər ölkəmizdə vətəndaş qarşıdurması yaradıb, sabitliyi pozmağa girişiblər.

Ardı Səh. 12

# "Terrorçunu müdafiə edənlər sonda polisə əl qaldırdılar"

## *"Bu hadisələrin xaricdən təşkil və idarə olunmasına zərrə qədər şübhə yoxdur"*

Əvvəli-Səh-11

Düşmənlərin ölkəmizdə təşkil etdikləri bu cür təxribat ilk hadisə deyil. Qubada, Nardaranda, İsmayıllıda da xaricdən təşkil və idarə olunan bu cür təxribatlar törətdiklərini, təşkilatçıların və iştirakçıların necə uğursuzluğa düçar olduqlarını, dövlətimizin qanunlarının ən sərt maddələri ilə cəzalandırıldıqlarını yaxşı xatırlayırıq. Şübhə etmirəm ki, dövlətimiz və xalqımız bu dəfə də düşmənlərimizin məkrli məqsədlərinin ölkəmizdə reallaşmasına imkan verməyəcək və dövlət-xalq birliyi hər cür təxribatın qarşısı layiqincə alınacaq və Azərbaycan seçdiyi uğurlu yoluna davam edəcəkdir.

### Avrasiya İnformasiya Agentliyinin ("avrasiya.net") baş redaktoru Cavid Şahverdiyev: "Silahsız polislərimizin qətlə yetirilmələri heç bir insanlığa sığmayan haldır"



- Gəncədə bir qrup "dindar"ın qanunsuz aksiyasının qarşısını alarkən, iki polis zabitinin qətlə yetirilməsi Azərbaycanda sabitliyin pozulması və insanlar arasında qorxu və təşvişin yaradılmasına xidmət edir. Bu ssenari xaricdən hazırlanıb. Gəncə şəhərinin icra hakimiyyətinin başçısı Elmar Vəliyevin güllələnməsi bu ssenarinin bir hissəsidir. İyunun 10-da Gəncədə qeyri-qanuni təşkil edilən aksiyada radikallar iki polis zabitimizi qətlə yetirərək, ssenarinin digər hissəsini həyata keçirdilər. Polisimizin həmin radikalların qarşısına əliyalın, silahsız çıxması dövlətin qanunlara riayət etməyən vətəndaşlarına belə humanizmin göstəricisidir. Lakin silahsız polislərimizin qətlə yetirilmələri heç bir insanlığa sığmayan haldır, özü də "dindar"lar tərəfindən. Bu hadisə bütün Azərbaycanı təəssüfləndirib. "İnanc" sahibi, onu qoruyan polisini qətlə yetirib. Nəyə görə? Çünki tapşırıq bu olub: Polis qətlə yetirilsin, ara qarışsın, polis dindarlara qarşı silah işlətsin və s... Ssenari bu olub. Amma Azərbaycan polisi silahsız və dəyənəksiz onları qanunun aliliyinə hörmətlə yanaşmağa dəvət etdi. Cavab isə qətl oldu. Özünü imanlı sayan heç bir dindarın əli qana bulaşmamalıdır. Polislərimizi qətlə yetirən hər iki şəxs radikal dini qruplaşmanın üzvləridir. Azərbaycanda belə qruplaşmaların fəaliyyəti mümkünsüz olduğundan, çox güman ki, onlar kənarda təlim keçib, Azərbaycana ezam ediliblər. Məqsəd qanunsuz aksiyalarda iştirak etməklə qarşıdurma yaratmağa cəhd göstərməkdir. İki polis zabitimizi qətlə yetirmək bütöv cəmiyyətimizə qarşı törədilən terror hadisəsidir. Kənardan Azərbaycana ezam ediləcək belə dindarların sayı az deyil. Amma hüquq-mühafizə orqanlarımız və güc strukturlarımız həmişə ölkəmizin təhlükəsizliyini qoruyublar və bundan sonra da qorumaq gücündədirlər. Bütün Azərbaycan vətəndaşları həmin orqanlarla həmrəy olmalıdır. Azərbaycan xalqı hakimiyyətlə həmrəydir. Radikallar heç bir zaman Azərbaycanımızı Suriyaya döndərə bilməyəcəklər. Azərbaycan qorunur, onun dövləti-dövlətçiliyi və mərd övladları var. Ölkəmizi, dövlətimizi, sabitliyimizi və gələcəyimizi qorumalıyıq. Dini radikalizm və terrora qarşı birləşməliyik. Bu işdə hamımız həmrəy və mübariz olmalıyıq. Radikalların Gəncədə qan tökməsi heç birimizdə təşviş yaratmamalıdır, biz onlara dövlətimizin gücünü göstərməliyik. Radikalizmə qarşı mübarizədə qətiyyətli olmalıyıq və imkan verməməliyik ki, Azərbaycanda sabitlik və əmin-amanlılıq pozulsun. Azərbaycanımızı, vətənimizi, torpağımızı və millətimizi qorumaq naminə şəhid olmaqdan qürur duymalıyıq.

### "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə: "Bizə lazım olan söz və əməl vaxtı indidir"



- Gəncədə baş verən təxribat və terror hadisəsi hər birimizi üzdü. Əslində, məhz Gəncənin icra hakimiyyətinin başçına qarşı törədilən məlum sui-qəsd hadisəsi, birmənalı olaraq, xarici qüvvələrin birbaşa planı əsasında həyata keçirilən və Azərbaycan dövlətinə qarşı yönələn terror hadisəsi idi. Azərbaycanlılar tarixən dinə yaxın olublar. Bəli, dini mövhumat olub, amma heç vaxt din pərdəsi altında radikalizm olmayıb. Ölkədə dinə və dindara olan münasibət hər kəsə bəllidir. İstənilən din yaxşılığı, mərhəməti və düzlüyü təbliğ edir. Dindar olmaq, əslində, yaxşı insan olmaq deməkdir. Dindar olmaq yaxşı ailə başçısı, yaxşı vətəndaş olmaq deməkdir. Gəncədə baş verən hadisənin dinlə heç bir əlaqəsinin olmadığı bəlli bir məsələdir. Deyərdim ki, əslində, sübuta ehtiyacı olmayan bir aksiomadır. Bununla bağlı hər hansı təhlil aparmağa da ehtiyac yoxdur. Təəssüf ki, terroru və terrorçunu görmək üçün bəzi insanlara 2 göz azlıq edirdi. Çox təəssüf hissi ilə qeyd etmək lazımdır ki, sayları az olsa da, bəzi qüvvələr məsələnin fərqinə varmayaraq terror hadisəsi törədən şəxsin hüquqların müdafiəsinə qalxdılar. Həmin inşalara sual olunur: Mütəmadi olaraq, dövlətimizə və millətimizə qarşı terrorçuluq aktı törədən erməni terrorçularının müdafiəsinə qalxacaqsınızmı? Əlbəttə, məlumdur ki, bu hadisələri əvvəlcədən planlaşdıran qüvvələr saxta profillər vasitəsi ilə sosial şəbəkədə təxribat xarakterli təbliğat aparırdı. Amma təbliğatın nə dərəcədə aparılmasından asılı olmayaraq, birmənalı olaraq, heç bir gəncəli çağırışlara istinadən həmin iğtişaşda iştirak etməyib. Bu hadisənin nə dərəcədə Avropada oturum alan "söyüş müxalifəti" ilə əlaqəsinin olub-olmaması istintaq orqanlarının araşdıracağı bir məsələdir. Amma "avropalılar"ımız yenə fürsəti əldən verməyərək, təxribat xarakterli fəaliyyətləri ilə bu məsələlərə də "töhfə" verməyi özlərinə borc bildilər. Hadisənin ertəsi günü Qərb ölkələrinin səfirlikləri bu hadisəni pisləyəcək, bəyanat yaymayacaqlarsa, bəs hanı terrora qarşı birgə mübarizə ilə bağlı deyilən sözlər? Hər dəfə Qərb rəsmiləri görüşlərdə Azərbaycanın terrora qarşı aparılan mübarizədə beynəlxalq əməkdaşlığa verdiyi töhfədən dolayı minnətdarlıqlarını bildirdilər. Bizə lazım olan söz və əməl vaxtı indidir. Gəncədə ötən gün baş verən hadisə, həmin dediyiniz radikalizm, terror və buna bənzər hadisə deyilmi? Yoxsa bu qiymətləndirməni aparmaq üçün hadisənin Avropada baş verməsi lazımdır? Biz də Avropayıq. Bütün gücümüz və imkanlarımız ilə Avropanın alternativ enerji xəritəsində rol oynayan Azərbaycan. Azərbaycan müstəqilliyini ona görə bərpa etmədi ki, Rusiya imperializmindən çıxıb, Avropa diktəsini qəbul etsin. Hər bir dövlət kimi, Azərbaycanın da öz milli maraqları digər bütün məqamlardan üstündür. Azərbaycanın bu mövqeyi sizləri qane etmir? Bu gün Azərbaycan ictimaiyyətinin bütün qüvvələri, çalışdığı sahədən, siyasi baxışından və dini əqidəsindən asılı olmayaraq, birmənalı tərzdə bu terror hadisəsini pisləyir. Dövlətdən və onun hüquq-mühafizə orqanlarından vətəndaşların və dövlətin təhlükəsizliyinə qarşı törədiləcək hər hansı hadisənin qarşısının alınmasını və günahkarların ən sərt şəkildə cəzalandırılmasını tələb edirik.

**GÜLYANƏ**

# Gəncə hadisələri sabitliyimizə və inkişafımıza xələl gətirmək istəyən qüvvələrin təxribatıdır



***Bu gün islami dəyərlərə ehtiramla yanaşan, multikulturalizm və tolerantlıq nümunəsi ilə diqqətdə olan Azərbaycan dünyəvi və iqtisadi cəhətdən inkişaf edən dövlət kimi beynəlxalq miqyasda tanınır. Həyata keçirdiyi islahatlar, iqtisadi sahədə əldə edilən nailiyyətlər, ölkədəki daxili siyasi sabitliyin təmin olunması, əhalinin sosial rifahının və həyat şəraitinin yüksəlməsi ölkəmizin inkişafının göstəriciləridir.***

Regionda lider dövlətə çevrilən Azərbaycanda dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən islahatlar, dövlət proqramları ölkənin davamlı inkişafını təmin edib. Gəncədə baş verən məlum hadisələr Azərbaycanı sevməyən, sabitliyimizə və inkişafımıza xələl gətirmək istəyən qüvvələrin təxribatıdır. Xalqımız bu hadisəyə biganə qalmayaraq, öz birlik və həmrəyliyini nümayiş etdirir. Ölkəmizin ictimai-siyasi həyatında rolu olan ziyalılarımız hadisə ilə bağlı fikirlərini belə ifadə etdilər:



### YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov:

- Müasir və Azərbaycanın inkişafının ən mühüm amillərindən biri ölkəmizdə ictimai-siyasi sabitliyin qorunub- saxlanılmasıdır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş sabit ictimai-siyasi mühit Prezident İlham Əliyevin apardığı ardıcıl və məqsədyönlü siyasət nəticəsində, daha da möhkəmləndirilib. Ölkəmizin inkişafını, uğurlarını gözü götürməyən qüvvələr Azərbaycanda iğtişaşlar törətməyə, insanları vahiməyə salmağa çalışırlar. Son günlərdə Gəncədə baş verən hadisələr, ölkəmizdə ictimai-siyasi sabitliyin pozulmasına yönəldilib. Sabitliyin hədəfə alınması, çaşqınlıq, xaos yaratmaq və pozuculuq cəhdləri müstəqil dövlətimizin uğurlarına qısqanclıqla yanaşan qüvvələrin məqsədyönlü niyyətlərinin ifadəsidir. Ölkəmizdə hər kəs ictimai mənsubiyyətindən, dinindən, irqindən asılı olmayaraq sərbəst fəaliyyət göstərir və ölkəmizdə din-dövlət münasibətləri yüksək tərzdə formalaşıb. Gəncə şəhərində törədilən cinayət ictimaiyyətin hər bir üzvü tərəfindən hiddətlə qarşılanır. Bunu təşkil edənlərin qarşılarına qoyduğu əsas məqsəd ölkəmizdə sabitliyi pozmaq və qarşıdurma yaratmaqdır. Ancaq buna cəhd edənlər anlamalıdırlar ki, Azərbaycanda möhkəm ictimai-siyasi sabitlik, etibarlı, təhlükəsizlik sistemi mövcuddur və müəyyən dairələrin sosial şəbəkələr vasitəsi ilə etdikləri mənasız çağırışlar əhali tərəfindən şiddətlə qınanılır, ölkəsinin gələcəyini düşünən hər kəs vətəndaşlıq mövqeyini ortaya qoyaraq, dövlət başçısının qətiyyətli mövqeyini dəstəkləyir. Müasir, geniş dünyagörüşlü, vətənpərvər Azərbaycan övladları məsələni düzgün qiymətləndirməyi bacarır, birlik və həmrəylik göstərirlər.

### YAP Suraxanı rayon təşkilatı qadınlar şurasının sədri Zəkiyyə Musayeva

Gəncədə baş verən son hadisələri törədənləri kəskin şəkildə qınayır və hər bir kəsdən ölkəmizin gələcəyi naminə, onun sabitliyinin qorunması yolunda əlbir olmağa çağırır, yalnış informasiya yayan, bəzi dairələrin əlaltısına çevrilənlərə qarşı sərt mövqe sərgiləməyə səsləyirik: Respublikamızın inkişafını, demokratik dəyərlərə sadiqliyini qəbul etmək istəməyən və Azərbaycanda öz məkrli niyyətlərini həyata keçirmək arzusunda olanlara isə bəyan edirik: Sizin təxribat xarakterli heç bir cəhdləriniz baş tutmayacaq! Çünki bu ölkənin gücü Lideri və bu Liderin ətrafında səfərbər olan xalqı var. Bu gün ölkəmizdə möhkəm birlik və sabitlik hökm sürür. Ölkəmizdə sabitlik və normal həyat tərzi təmin olunub. Bu, bizim böyük sərvətimizdir.

**ZÜMRÜD**

# Nikoldan növbəti siyasi blef

## Ermənilər özləri də baş nazirin qondarma oyunlarının fərqindədirlər



***Bu dəfə erməniləri "küçə demokratı" tamam yanlış bir yola saldı və ermənilər, heç vaxt olmadığı kimi, bərk aldandılar. Kütləyə demokratiya vədi verərək, hakimiyyətə gəlməsini hiyləgərliklə təmin edən Qərb casusu Nikol, erməninin olmayan tarixində görünməmiş manipulyator olduğunu təsdiqlədi.***

Siyasətdən uzaq, idarəçilikdən xəbərsiz beli çantalı küçə nümayişçisinin maskası cırıldıqca, altından saqqallı bir radikal çıxır ki, artıq ermənilərin özləri belə bu "sifət"dən yaxa qurtarmaq niyyətindədirlər. Daha doğrusu, "sifət" deyilən bu hiyləgər düşdüyü mühitdə buqələmundan da böyük "məharət" göstərir və təkcə rəngini yox, formasını da dəyişməkdə bir erməni kimi çox mahir olduğunu təsdiq edir. Hətta öz hiyləgərliyinin və çoxbilmişliyinin girovuna çevirdiyi erməni xalqına verdiyi suverenlik, müstəqillik, demokratiya və nəhayət, kardinal dəyişikliklər və köklü islahatlar barədə vədlərinin qarşısında gözdən pərdə asmaq üçün, bir tərəfdən, Qərbi əlində saxlamağa, digər tərəfdən də, davranışları ilə qıcıqlandırdığı Rusiyanın könlünü almağa cəhd edir və beləliklə də, hiyləgərlikdə hər bir ermənini qabaqlayır.

### Ermənistan heç vaxt müstəqil siyasət yürütmək, geosiyasi strategiya müəyyənləşdirmək iqtidarında olmayıb, olmayacaq da

Ermənistanın xarici siyasət kursunun dəyişəcəyinə ümid verən Paşinyana inanan ermənilər bərk yanılırlar. Ermənistanın müstəqil dövlət kimi öz istədiyi siyasəti yürüdəcəyini, öz strategiyasını özü müəyyənləşdirəcəyini düşünənlər səhv edirlər. Buna ümid etmək ağılsızlıqdır. Çünki hazırkı şəraitdə, mövcud şərtlər daxilində, bu, mümkünsüzdür. Hiyləgərliyini, torpaq iddialarını, lobbiçilik fəaliyyətini, bir sözlə, məkrli oğurlama və mənimsəmə siyasətini nəzərə almasaq, Ermənistan heç zaman müstəqil siyasət yürütmək, geosiyasi strategiya müəyyənləşdirmək iqtidarında olmayıb. Bu gedişlə heç olmayacaq da. Çünki Ermənistan deyilən bir dövlətin nə təməlini ermənilər qoyub, nə də əldə etdiklərində, daha doğrusu, oğurladıqlarında və mənimsədiklərində erməni xalqının rolu olmayıb. Ermənistan dövləti də, bu dövlətin ərazisi hesab olunan, əslində isə, Azərbaycandan oğurlanmış və mənimsənilmiş torpaqlarımız da rusların onlara hədiyyəsidir.

Ermənistan Rusiya tərəfindən qondarılmış bir ölkədir və rusların Qafqazda sırf öz himayəsi altında saxladığı dövlətdir. Bölgədə öz mövqelərini qorumaq məqsədilə, heç bir təbii ehtiyatlara, sərvətlərə malik olmayan, heç bir dividend gətirməyən, öz mövcudluğunu belə təmin edə bilməyən bir ölkəni əsrlər boyunca təmin edən Rusiya onu Avropaya verərmi? Yaxud Qafqazda nəzarəti əldən verməmək üçün, bu qədər uzun bir dövr ərzində, bir növ sərmayə qoyduğu Ermənistanı şapkasını tərsinə qoyan nümayişçi, manipulyator Nikolun şıltaqlıqlarına və ərköyünlüklərinə qurban verərmi? Əlbəttə, yox. Real baxış bucağından, düzgün prizmadan baxdıqda, nə yaxın, nə də uzaq perspektiv üçün bu, mümkün görünmür.

### Paşinyan demokratik yolla deyil, dövlət çevrilişi ilə hakimiyyətə gəlməsini ört-basdır etməyə çalışır

Artıq Ermənistan vətəndaşları Nikol Paşinyanın özünün də səmərəli bir addım atacağına, uğur qazanacağına ümidlərini kəsiblər. Sosial şəbəkələrdə bununla bağlı ermənilərin fikirlərinə nəzər salanda, bəlli olur ki, ermənilərin özləri də baş nazirin yalanlarının və qondarma oyunlarının fərqindədirlər. Doğrudur, erməni KİV-ləri N.Paşinyanın Brüssel səfəri ətrafında müzakirələr aparmağa, bu səfərin xarici siyasətə hansı təsirlər edə biləcəyi ilə bağlı optimist fikir formalaşdırmağa çalışırlar. Lakin buna nə dərəcədə nail olması müzakirə mövzusu belə ola bilməz. Çünki beynəlxalq ictimaiyyət, hətta Ermənistan cəmiyyəti də real vəziyyət barəsində dolğun və müfəssəl məlumata malikdir.

Ermənistanın baş nazirinin bu kimi fəaliyyəti, yəni ermənilərin gözünə kül üfürmək üçün xarici səfərlərə yer ayırması, beynəlxalq təşkilatlarda iştirak etməyə can atması, görüşlərə səy göstərməsi yalnız daxili auditoriyaya hesablanıb və qeyri-legitim hakimiyyətini qorumaq məqsədi daşıyır. Küçə nümayişçisi Nikol Ermənistanla heç bir əlaqəsi olmayan demokratiya və insan hüquqlarından danışaraq, özünün demokratiya deyil, dövlət çevrilişi yolu ilə hakimiyyətə gəlməsini ört-basdır etməyə çalışır. Elə bir eyforiya yatarmağa çalışır ki, guya o, demokratik yolla, xalqın tələbi ilə öz postunda oturub və fəaliyyəti də, məhz erməni xalqının namı üçündür. Əslində isə, bu fəaliyyəti, indi də Ermənistan sərhədindən kənarda oynadığı oyunları, qurduğu səhnəcikləri, ifa etdiyi rolları fırıldaqçı küçə nümayişçisinin özünə və öz əməllərinə bəraət qazandırmaq üçün çabalarıdır.

### Ermənistanın Aİ və NATO ilə əlaqələrinin dərinləşməsi üçün tutarlı bir fakt, hansısa zəruri şərait ortada yoxdur

Paşinyanın idarəçiliyi və təsiri altında olan kütləvi informasiya vasitələri də, ekspertlər də pafosla və hay-küylə Ermənistanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığının inkişaf perspektivlərindən dəm vururlar. Lakin Ermənistan-Aİ əməkdaşlığının yüksələn xətlə inkişaf etməsi, yaxud Ermənistan-NATO əlaqələrinin dərinləşməsi üçün tutarlı bir fakt ortaya çıxara bilmirlər. Sual oluna bilər, hər iki qurumla vəd olunan əməkdaşlıq və əlaqələr üçün hansı zəruri şərait mövcuddur? Yaxud heç bir təbii ehtiyatlara, sərvətlərə malik olmayan, inkişafından söhbət belə gedə bilməyən, əksinə, tənəzzül içində, səfalət içində olan Ermənistanla belə mötəbər qurumun əlaqələrində və əməkdaşlığında qarşı tərəfi nə maraqlandıra bilər? Təbii ki, ortada sağlam heç bir maraq olmadığı təqdirdə, bəlli olur ki, din birliyi kimi şovinist bir siyasət ortaya çıxır və pafoslar da, məhz bu şovnizmdən qaynaqlanır.

Din birliyi, yaxud nə olsa belə işğalçıların uğursuz siyasətinin nəticəsiz qalacağına şübhə ola bilməz. Ermənilər Rusiya ilə strateji əlaqələrdən hansı məntiqlə, hansı pafosla bəhs edirdilərsə, indi də eyni hay-küy Avropa İttifaqı və NATO ilə əməkdaşlığın inkişaf perspektivlərindən dəm vururlar. Rusiyaya ermənilərin necə xəyanətkarlıq etdiklərinin təkcə ruslar şahidi olmadı, bütün dünya ictimaiyyəti bu xəyanətkarlığı və saymazlığı müşahidə etdi. İndi Rusiyanın din birliyi olsa belə Ermənistana inanacağını və etibar edəcəyini gözləmək olmaz. Məhz Rusiya ilə münasibətlərini hansı müstəviyə çıxardıqlarını nəzərə alsaq, cəsarətlə deyə bilərik ki, ermənilərin Avropa İttifaqı və NATO ilə əməkdaşlığının da analoji aqibəti var.

### Ermənistanın baş nazirinin iddiaları radikal küçə zorbaçısının fikirlərindən, ritorikası isə Sarkisyanın ritorikasından fərqlənmir

Erməni mətbuatı N.Paşinyanın Brüsselə səfəri ilə bağlı tərəflərin qarşılıqlı olaraq geniş əməkdaşlığa can atdıqlarından yazır, hətta Aİ-nin Ermənistandakı nümayəndəsinin belə "Biz N.Paşinyanı isti qarşılayacağıq" fikrini pafosla təkrarlayır, bundan da istifadə etməyə çalışır. Aİ diplomatiyasının rəhbəri Federika Moqerininin Ermənistanla əlaqələri inkişaf etdirməklə bağlı əldə olunan razılığı "uğur tarixi və tarixi imkan" adlandırmasını isə erməni hiyləgərliyi ilə təşviq edərək bunu da böyük perspektivlərə proqnoz, Paşinyanın imici, nüfuzu kimi qələmə verir, təşviq edirlər. Əslində isə, Nikolun və onun hakimiyyətinin dəyirmanına su tökən erməni mətbuatının pafosla şişirtdiyində, təşviqat aparmaq məqsədi ilə çox cazibədar qələmə verdiyində qeyri-adi heç nə yoxdur və bu, tərəflərin əməkdaşlıq etməyə hazır olduqlarının diplomatik şəkildə ifadəsidir. Uğur tarixi, yaxud isti qarşılanma sözləri diplomatik ifadələrdir və dünya ictimaiyyəti belə frazalarla birinci dəfə rastlaşmır ki, ermənilər bunu bayraq etməyə çalışırlar.

Ermənilər özləri belə birinci dəfədirmi rastlaşırlar bununla və eyni ritorikanı indi Ermənistan cəmiyyəti və Paşinyan hakimiyyəti tərəfindən qəbul edilməyən Serj Sarkisyan uzun illər işlətmirdimi? Yaxud Nikolun nə kimi xidmətləri oldu ki, hansı islahatlara imza atdı ki, Aİ tərəfindən belə maraq obyekti olacağına iddialıdır? Küçə adamı, nümayişçi Paşinyan islahatlar bir tərəfə, bu vaxta qədər bir dənə də olsa real, konkret və demokratik fikir belə irəli sürməyib. Analitiklər indiyə qədər, Nikolun elə bir fikrini nümunə gətirə bilmirlər ki, demokratiyaya, müasirliyə və səmərəli əməkdaşlığa səsləsin. Onun iddiaları radikal küçə zorbaçısının fikirlərindən zərrə qədər də fərqlənmir və davranışları artıq hamisi olan Rusiya kimi böyük bir dövlətin başçısını da qıcıqlandırır.

İndi Qərbə meyilli kimi özünü göstərən Paşinyanın bu istiqamətdə addım atdığını təsdiq edən bircə dənə fakt belə yoxdur. Heç ola da bilməz. Ermənistanın qondarma baş naziri nə karədir ki, Rusiyanın gözü qarşısında Qərbə tərəf addım ata. Özünün ikihakimiyyətliliyi fonunda Ermənistan özü də bir dövlət kimi, belə Qərbə necə meyil edə bilər? Buna Moskva imkan verərmi? Nikol özü də şahidi oldu ki, kürsüsünü qəti şəkildə əldən vermək niyyətində olmayan Sarkisyan hərbçilərin nümayişçilərə qoşulmasından, yəni dolayısı ilə Rusiyanın təsirindən dərhal sonra istefa vermək məcburiyyətində qaldı. Bütün bu faktlar belə təsdiq edir ki, Rusiya nəinki Paşinyanın, hətta bütün Ermənistanın bir anda qulağını burmaq iqtidarındadır.

Serj Sarkisyanın dövründə olduğu kimi, ortada yenə də quruca söz var və Nikol indi bu söz yığınını fərqli şəkildə, fərqli tonda ifadə etməyə çalışır ki, bu da yalnız ələ aldığı auditoriyaya hesablana bilər. Paşinyan da yox, elə Ermənistanın özü Rusiyanın tam nəzarəti altındadır. Bu nəzarət mexanizmi küçə nümayişçisinin ağlına nə gəldi etməsinə imkan verməz. İstənilən anda Ermənistanın yaddaşlardan belə silinməsi Rusiya üçün çox sadə məsələdir. Çünki məhz rusların himayədarlığı sayəsində, formal da olsa, Ermənistan adlı dövlət hələ ki, xəritədə qalır.

### Rusiya Ermənistanın oyunlarının qurbanına çevriləcək dövlət deyil və ermənilərin səhvini bağışlamayacaq

Maraqlıdır, Ermənistan iqtisadiyyatının, enerji infrastrukturunun, hərbi qüvvəsinin Rusiyadan asılı olduğu, onun təhlükəsizlik sistemində nə qədər rus təsirinin mövcudluğu halda, bu Nikol adlı, bir vaxt beli çantalı küçə nümayişçisi olmuş baş nazir nədən dəm vura bilər? Belə bir ölkə Aİ ilə müstəqil əlaqələri necə qura bilər? Əgər qura bilməzsə, bu populist davranış və çıxışlar nəyə lazımdır?

Baş nazir Paşinyan ordumuzun qüdrətini etiraf etməsə də, 2016-cı ilin aprel hadisələrini də, Naxçıvanda Azərbaycanın uğurlu hərbi əməliyyatlarını və zəfərini də qəbul etmək məcburiyyətindədir. O, həmçinin, çox yaxşı başa düşür ki, Azərbaycan Ordusu istənilən anda hərbi yolla Qarabağın geri qaytarılmasına qalxarsa, Ermənistan bunun qarşısını almaq iqtidarında deyil. Bu baxımdan, Nikolun Aİ, həmçinin, NATO ilə əməkdaşlıq söz-söhbətləri köhnə nümayişçinin növbəti blefi ola bilər yalnız. Belə danışıqlarla məsələni uzatmağa çalışan Paşinyan, göründüyü kimi, Serjdən zərrə qədər də fərqlənmir. Erməni hiyləgərliyi bu avantüristə imkan verir ki, bu dəfə Qərbi bu prosesdə daha da fəallaşdırmağa cəhd edərək, aranı qızışdırsın. Qərb dövlətləri ilə Rusiya arasında danışıqların necə davam etdirilməsi ətrafında fikir ayrılığı yaranacağına şübhə etməyən Nikol bilir ki, tərəflərdən hər biri özünü başlıca təşəbbüskar tərəf kimi təqdim etməyə çalışacaqları təqdirdə, mənasız söz savaşı ortaya çıxa və Qarabağ məsələsinin müzakirəsi illərlə davam edə bilər. Nəticədə isə, ermənilər itirməkdən qorxduğu, Qarabağ məsələsinin həllinin yenə də uzanacağına ümid edirlər.

Məsələ burasındadır ki, Rusiya Ermənistanın, ermənilərin oyunlarının qurbanına çevriləcək balaca bir dövlət deyil və özündən asılı olanların səhvini bağışlamayacaq. Rəsmi İrəvanın ikibaşlı, ələlxüsus, Qərb oyunu müəyyən həddə çatanda Kremlin yumruğu mütləq Ermənistan rəhbərliyinin başına endiriləcək. İstənilən anda İrəvanda müəllifi Rusiya olan yeni etiraz dalğası da danılmazdır. Rusiya Ermənistanı mövcud olduğu geosiyasi buxovda saxlamağa qadirdir və buna maraqlıdır da. Bu baxımdan, ermənilərin azadlıq iddialarının da, müxtəlif beynəlxalq təşkilatlara üz tutmasının da nəticəsiz qalacağı gün kimi aydındır. Bir sözlə, Rusiya faktoru ola-ola Ermənistan azad ola bilməz. Məhz buna görə də ermənilərin, onların özlərinə küçədən gətirib baş nazir təyin etdikləri Nikolun səyləri əbəsdir və indi Brüsseldə oynadıqları oyunlar növbəti siyasi blef kimi dəyərləndirilir.

***İnam İMRANOĞLU***

# Əli Kərimli yenə də təlaş içində

*Və ya terror simpatiyası çox mətləbləri üzə çıxarır*



Yenə də dağıdıcı xislətli müxalifət var-gəl etməkdədir. Bu onların xislətidir. Hər dəfə ölkədə bir olayın baş verməsini görər-görməz pişik siçanın üstünə şığıdığı kimi, dağıdıcı müxalifət də hər hansı hadisədən bəhrələnməyə başlayır. Elə Gəncə hadisəsi də dağıdıcı müxalifət üçün "göydəndüşmə" oldu. Belə ki, sosial şəbəkələr vasitəsi ilə başladılar kütləvi itaətsizlik çağırışları etməyə. Yenə də daha çox canfəşanlıq edən tərəf AXCP və Müsavat partiyaları oldu. Hətta bir neçə saytdan "müxalifətdən hakimiyyətə tam dəstək" çağırışları ilə informasiyalar verməkdə davam etdilər. Necə də bayağı çağırışlar... Məgər terrora dəstək olan Əli Kərimli, Arif Hacılı və kimlər deyilsinizmi? Gənclərin ölkədə siyasi sabitliyi pozmağa çağırışlar edən sizlər deyilsinizmi?

## Faktlar, sübutlar və dəlillər

Sözsüz ki, bu halda, AXCP sədri Ə.Kərimli həmişə əlinə düşən fürsətdən maksimum yararlanmağa çalışıb və bunu təsdiqləyən faktlar kifayət qədərdir. Belə ki, uzun illərdir Ə.Kərimlinin ən yaxın tərəfdaşlarından olan "Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahidin "Azərbaycan saatı" adlı verilişi Türkiyənin "Barış TV" kanalında yayımlanırdı. Dövlət çevrilişi cəhdindən dərhal sonra Türkiyə hakimiyyəti "Barış TV"-ni F.Gülənin qruplaşmasının nəzarətində olan digər KİV-lərlə birlikdə bağladı. Yəni Ə.Kərimli bundan xəbərsiz deyildi. Eləcə də, digər faktlar da bu faktoru kifayət qədər təsdiq etməkdədir. Eynilə Ə.Kərimlinin fətullahçı "Kurultay" nəşrinin baş redaktoru Aydın Taşla xüsusi əlaqələrinin olması, eləcə də, bitməyən digər faktlar, bir daha sübut edir ki, zaman-zaman Gülən piramidasının baş maliyyəçisi olan Murat Kılıclının vasitəsilə pul yardımı alıb. Məhz həmin maliyyə vasitəsilə AXCP sədri Ə.Kərimli Azərbaycanda çevriliş etmək məqsədilə müxtəlif radikal təmayüllü təşkilatlar yaradıb, onları çirkin məqsədlər üçün istifadəyə cəhdlər göstərib.

Nardaranda baş verən hadisələr zamanı Ə.Kərimli sosial şəbəkədə insanları "qiyama" səsləməklə ölkədə vətəndaş qarşıdurması yaratmağa cəhdlər göstərirdi. İyrənc məqsədinə çatmaq üçün simasını itirmiş, milli mənafeləri düşünməyən, hər cür alçaqlığa qol qoyan AXCP sədri hər zaman istənilən qaranlıq dairələrlə müttəfiqliyə hazır olan antimilli qüvvəyə çevrildiyini nümayiş etdirib. Çünki Ə.Kərimli terroru və ekstremizmi özünə peşə seçənləri dəstəkləməklə də kimliyini ortaya qoyur.

## Elşən Musayev: "Əli Kərimli Qərbə çoxdan satılıb"

Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayev bildirib ki, Ə.Kərimli fəaliyyəti boyu həmişə Qərb üçün alqı-satqı obyekti olub. Onun sözlərinə görə, Ə.Kərimli bütün siyasi fəaliyyəti boyunca, ancaq satılmaq işinə baxıb: "Ə.Kərimli ancaq alqı-satqı cəmiyyəti qurub. Bu şəxsin mahiyyəti və xisləti, məhz Qərbə satılmaq üstündə köklənib.

*Rəfiqə HÜSEYNOVA*

# Təxribatçı qüvvələr öz mənfur və çirkin əməlini reallaşdıra bilməyəcəklər

*Bölücülük və dağıdıcılıq əsasında sifarişlər əldə edən resurslar ifşa olundular*



Gəncədə baş vermiş terror hadisəsinin ardınca, bu qanlı olaydan sui-istifadə edib, növbəti təxribat hadisələrini törətməyə cəhd göstərənlər sırasında bir sıra saytların, facebook səhifələrinin də canfəşanlıqlarını müşahidə etdik. Məqsəd vətəndaş qarşıdurması və itaətsizliyi yaradaraq, situasiyanı alovlandırmaq, milli, etnik və dini ayrı-seçkilik zəminindəki zəhərli fikirləri ictimai rəyə sırımaq və s. çirkin əməlləri reallaşdırmaq idi. Lakin hadisələr tam şəkildə hüquq-mühafizə orqanlarının, eləcə də, dövlət strukturlarının nəzarətinə alındıqdan sonra, bəlli oldu ki, müəyyən saytlar və sosial şəbəkə səhifələri, bilavasitə xaricdən idarə edilir və maliyyələşdirilirdi. Biz, bunu hələ Mingəçevir İES-də baş vermiş məlum qəzadan sonra gördük.

## Sosial şəbəkələrdə vətəndaş qarşıdurmasına və itaətsizliyə çağırış edən ayrı-ayrı fərdlər, müvafiq olaraq, məsuliyyətə cəlb edildilər

Həmin qəza baş verər-verməz, hətta onun fəsadları aradan qaldırılarkən, bir sıra antidövlət xarakterli sosial şəbəkə səhifələri eynilə bənzər ssenari ilə hərəkətə keçərək, süni ajiotaj yaratmağa cəhdlər göstərdilər. Lakin nə onda, nə də sonra heç bir nəticə əldə edə bilmədilər. Əksinə, bölücülük və dağıdıcılıq əsasında sifarişlər əldə edən resurslar ifşa olundular. O cümlədən, sosial şəbəkələrdə vətəndaş qarşıdurmasına və itaətsizliyə çağırış ayrı-ayrı fərdlərin məsuliyyətə cəlb olunmaları ilə nəticələndi.

Ancaq daha bir fakt budur ki, radikal dini qruplaşmalara məxsus və xaricdən idarə edilən "nuraz.com", "abna.com", "aran.news", "qafqaz.ir", "rasthaber.com", "ru-clip.ru" və s. bu kimi internet resursları hazırda da Azərbaycan dövlətinin əleyhinə fəaliyyətlərini davam etdirərək, Gəncə hadisələrində həbs olunmuş radikal-kriminal dini qrupları, necə deyərlər, "təmizə" çıxarmağa cəhdlər göstərirlər.

## Azərbaycanın hüquq-mühafizə orqanları əzmlə fəaliyyət göstərməklə, cinayət törətmiş şəxslərin saxlanılaraq istintaqa cəlb edilmələri istiqamətində uğurlu əməliyyatlar həyata keçirirlər

O da sirr deyil ki, dağıdıcı müxalifət dairələrinə məxsus sosial şəbəkə səhifələri və media qurumları, məhz xarici qaranlıq dairələrin sifarişləri əsasında stabil vəziyyəti qeyri-stabil vəziyyətlə əvəzləməyə cəhdlər göstərirlər. Bu isə, bir daha belə qənaətə gəlməyə zəmin yaradır ki, ortada sırf separatçılıq meylləri mövcuddur və belə meyllərin qarşısının alınması istiqamətində Azərbaycanın hüquq-mühafizə orqanları əzmlə fəaliyyət göstərməklə, cinayət törətmiş şəxslərin saxlanılaraq istintaqa cəlb edilmələri istiqamətində uğurlu əməliyyatlar həyata keçirirlər. Həmçinin, bu istiqamətdə xalqımız da öz qətiyyətli mövqeyini sərgiləməkdədir. Bu qətiyyətli mövqe isə, sübut edir ki, heç bir təxribatçı qüvvələr öz mənfur və çirkin əməlini reallaşdıra bilməyəcək. Əksinə, buna cürət edərlərsə, daha sərt cavabla qarşı-qarşıya qalmalı olacaqlar.

*Rövşən NURƏDDİNOĞLU*

# Avtomobil qaçırmaqda və oğurluq etməkdə şübhəli bilinən şəxslər yaxalanıblar



İyulun 12-də Sabunçu Rayon Polis İdarəsinin 15-ci Polis Bölməsinə müraciət edən Bakı şəhər sakini Eldar Alıyev axşam saatlarında Zabrat qəsəbəsi ərazisindən "Opel" markalı avtomobilinin qaçırıldığını bildirib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dərhal başlanan əməliyyat-axtarış tədbirləri nəticəsində həmin avtomobil qısa müddətdə Zabrat-1 qəsəbəsi ərazisində onu qaçırmaqda şübhəli bilinən şəxslə birgə polis əməkdaşları tərəfindən saxlanılıb. Araşdırmalarla onun Abşeron rayon sakini, əvvəllər məhkum olunmuş Vahid Məmmədtağıyev olduğu müəyyən edilib. Ağdam Rayon Polis Şöbəsinin əməkdaşları isə iyulun 11-də Mahrızlı kəndinin ərazisində Ə.Abbasovun avtomobilindən oğurluğa cəhd göstərməkdə, V.Məmmədlinin və R.Əhmədovun avtomobillərindən isə pul və mobil telefon oğurlamaqda şübhəli bilinən kənd sakini, əvvəllər məhkum olunmuş Ağəli Salahovu saxlayıblar. Onun həmin gün V.Məmmədlinin "Mercedes" markalı avtomobilini qaçırmağa cəhd göstərdiyi də müəyyən edilib. Hər iki faktla bağlı araşdırma aparılır.

# Gömrük nəzarətindən gizlədilən mobil telefonlar və aksesuarlar aşkarlanıb

Gömrük nəzarətindən gizlədilən mobil telefonlar və aksesuarlar aşkarlanıb. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Tovuz Gömrük İdarəsinin "Sınıq Körpü" gömrük postunda Gürcüstandan Azərbaycana gələn Azərbaycan Respublikası vətəndaşının idarə etdiyi "BMW-525" markalı nəqliyyat vasitəsinə gömrük baxışı keçirilib.

Baxışdan öncə, sürücü üzərində və idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilmiş hər hansı predmetin olmadığını bildirib. Daha sonra baxış zamanı avtomobilin sağ və sol qanadlarının içərisindən 40 ədəd "X-Bo" və 2 ədəd "Samsung Galaxy J3" markalı mobil telefonlar və aksesuarlar aşkar edilib. Faktla bağlı araşdırma aparılır.

# Bakıətrafı bağ evlərinə "Simsiz rabitə" qurulur

"Baktelecom" yay mövsümü ilə əlaqədar paytaxt sakinlərinin Bakıətrafı ərazilərə axınını nəzərə alaraq "Simsiz rabitə" şəbəkəsinin (LTE - Long Term Evolution) əhatə dairəsini genişləndirir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yeni stansiyaların qurulması paytaxtətrafı kəndlərdə və yaşayış massivlərində sakinlərin keyfiyyətli telekommunikasiya xidmətləri ilə təminatına imkan yaradır.

Əsas üstünlük "Baktelecom"un məhdud infrastrukturlu ərazilərdə kabel xətlərindən asılılıq olmadan 100 meqabayt/saniyə qədər məlumat ötürmə sürəti, hava şəraitindən asılı olmayaraq kəsintisiz xidmət və müştəri seçimi üçün sərfəli tariflər təqdim etməsidir. "Simsiz rabitə" xidmətinə qoşulmaq istəyən müştərilər simsiz şəbəkəni dəstəkləyən və yüksək keyfiyyəti ilə seçilən xüsusi avadanlıqlar əldə etməlidirlər. Bu qəbuledici cihazlar baza stansiyalarından ötürülən siqnalı stabil saxlamaq və tam həcmdə ötürmək imkanına malikdir. Simsiz rabitə xidmətinə qoşulma isə "Baktelecom"un əməkdaşları tərəfindən pulsuz həyata keçirilir.

# Daha bir marşrut xətti "BakıKart" sisteminə keçir

Bakı Nəqliyyat Agentliyinin göstərişinə əsasən daha bir marşrut xətti üzrə gediş haqqının ödənişi "BakıKart" vasitəsilə həyata keçiriləcək. AZƏRTAC xəbər verir ki, bu barədə Bakı Nəqliyyat Agentliyindən məlumat verilib. Bildirilib ki, iyulun 14-dən 199 nömrəli müntəzəm marşrut xətti üzrə (Xətai prospekti-Bakı Mühəndislik Universiteti) hərəkət edən avtobuslarda nağdsız ödəniş sistemi tətbiq ediləcək. Gediş haqlarının "BakıKart" vasitəsilə ödənilməsini təmin etmək üçün "Xaliq Faiqoğlu" şirkəti tərəfindən xəttə texniki baxımdan saz vəziyyətdə olan və validatorla təchiz edilən nəqliyyat vasitələri buraxılacaq. 199 nömrəli marşrut xəttinin hərəkət sxeminə uyğun dayanacaqlarda ödəmə terminallarının qoyulması ilə bağlı zəruri tədbirlər görülür. Bununla da nağdsız ödəniş sistemi ilə çalışan marşrut xətlərinin sayı 23-ə çatmış olur.

# “Küçə uşaqları” problemi və uşaqların hüquqlarının müdafiəsinə dair dövlət siyasəti

***Dünya təcrübəsindən məlumdur ki, küçə uşaqları problemi bütün inkişaf etmiş ölkələrdə mövcuddur və onunla mübarizə hər zaman aktualdır. Küçə uşaqları problemi, eyni zamanda, bir neçə faktla bağlıdır. Belə ki, uşaqların küçələrdə olması onların təhsildən yayınması, onların cinayətkar qrupların cəlb edilməsi, onların daha çox cinayət faktı törətməsi kimi neqativ halların artmasına gətirib çıxarır. Azərbaycan hökumətinin küçə uşaqları probleminin həlli istiqamətində atdığı əsas addımlar qanunvericilik tədbirlərinin həyata keçirilməsi ilə bağlı olmuşdur. Belə ki, 2003-cü ildə AR Nazirlər Kabineti tərəfindən “Baxımsız və küçə uşaqları probleminin həlli üzrə Tədbirlər Planı” qəbul olunmuşdur. Tədbirlər planı uşaqların daha çox təhsilə cəlb edilməsini, onların sosial rifahının yaxşılaşdırılmasını nəzərdə tutur.***

Ölkədə küçə uşaqları üçün sığınacaq və reabilitasiya mərkəzi fəaliyyət göstərir. Bu mərkəzin fəaliyyəti nəticəsində, 10 il ərzində 950 uşaq və yeniyetmə küçə həyatından uzaqlaşdırılmışdır.

Uşaqların sosial müdafiəsi, onların təhsil və səhiyyə sahəsindəki hüquqlarının həyata keçirilməsi “Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Strategiyası (2003-2005)” adlı sənəddə öz əksini tapmış və daha sonra, “Yoxsulluğun azaldılması və sosial inkişaf üzrə Dövlət Proqramı (2006-2010)” çərçivəsində davam etdirilmişdir.

Nadir Adilov yazır: “Beləliklə, uşaq hüquqlarının müdafiəsi sahəsində müxtəlif mənbələrdən alınmış məlumatları sistemləşdirərək, uşaq hüquqlarının müdafiəsi sahəsində problem aspektli bir sıra sahələri, bütövlükdə belə müəyyən etmək olar: uşaqların sağlamlığı; uşaq narkomaniyası; təhsil; uşaq əməyi; yetim uşaqların vəziyyəti; uşaq nəzarətsizliyi; uşaqların hüquq pozğunluğu və s.

Uşaqlıq insan həyatında əhəmiyyətli mərhələ olduğundan, dövlət tərəfindən uşaq hüquqları ilə əlaqədar məsələlərin tənzimlənməsinə xüsusi diqqət ayrılmalıdır. Qeyd edilənləri nəzərə alaraq, AR-də uşaq hüquqlarının müdafiəsi istiqamətində məsələlərin (problemlərin) həll edilməsi üçün təkliflər bir sıra istiqamətdə təsnifləşdirilə bilər:

Birinci qrup tədbirlər dövlət və ictimai səylərin təşkilati təminatı ilə bağlıdır və özündə bunları birləşdirir:

- Yuvenal ədliyyə sisteminin formalaşdırılması;
- uşaq hüquqları istiqamətində Ombudsman təsisatının fəaliyyətinin daha da gücləndirilməsi;
- yetkinlik yaşına çatmayanların hüquqları və qanuni mənafelərinin təminatı üzrə ictimai nəzarətin yaradılması;
- sosial neqativ halların profilaktikası məqsədilə ictimai hərəkatın yaradılması və inkişafı;
- uşaqlar və yeniyetmələrlə iş üzrə mütəxəssislərin hazırlanması;
- müəssisə və təşkilatlarda gənclərlə iş üzrə vəzifələrin yaradılması.

İkinci qrupa sosial tədbirlər daxildir ki, bunlara da aid edilə bilər:

- yetkinlik yaşına çatmayanların təhsil, əmək və onların qabiliyyətlərinə uyğun ağılla nail olmaları üçün imkanların tam realizəsi üçün təminatlar;
- ağır həyat şəraiti sürən vətəndaşların və sosial qrupların sosial-psixoloji problemlərinin kompleks həllinə yönələn sosial-psixoloji yardım şəbəkəsinin inkişafı;
- uşaq və gənclərin sağlam həyat tərzinin, idman və bədən tərbiyəsi, yaradıcılığın inkişafı, yetkinlik yaşına çatmayanların nəzarətsizliyi və cinayətkarlığının qarşısının alınması, vətənpərvər ruhda tərbiyələri üçün maliyyə proqramlarının artırılması;
- yetkinlik yaşına çatmayanlar üzrə bölmələrin maddi-texniki bazasının möhkəmləndirilməsi;
- gənclər və yeniyetmələr üçün sosial xidmət, klub və mərkəzlər şəbəkəsinin inkişafı.

Üçüncü qrupa təhsil və tərbiyənin rolunun artırılması daxildir ki, bunlara da aşağıdakılar aiddir:

- savadsızlığın aradan qaldırılması, uşaqlar və yeniyetmələrlə müraciət təcrübəsinə malik mütəxəssislərin cəlb edilməsi yolu ilə təhsil sisteminin təkmilləşdirilməsi;

AR dövlətdaxili qanunvericiliyin təhlili ilə, belə qənaətə gəlmək olar ki, hazırda dövlətimizdə insan hüquqları sahəsində beynəlxalq hüquqi aktların müddəalarının dövlətdaxili qanunvericilikdə əks olunması tendensiyası daha güclüdür. Nəinki bu normaların birbaşa tətbiqi həyata keçirilir, eyni zamanda, dövlətdaxili qanunvericiliyin yeniləşməsi prosesi gedir.

Bütövlükdə, uşaq hüquqları sahəsində AR qanunvericiliyinin təhlili göstərir ki, uşaqların hüquqlarının müdafiəsi sahəsində beynəlxalq standartlar nəzərə alınmaqla bərabər, eyni zamanda, bu sahədə dünyanın müxtəlif regionlarının təcrübəsi də diqqətdən yayınmır.

Daha sonra uşaq hüquqlarının müdafiəsi və təminatı sahəsində real vəziyyətin yaxşılaşdırılması istiqamətində bir sıra təkliflərin irəli sürülməsi müzakirə edilə bilər: yetkinlik yaşına çatmayanların problemləri ilə məşğul olan dövlət orqanlarının bütün sisteminin yenidən təşkil edilməsinin zəruriliyi: bu istiqamətdə ictimai nəzarətin gücləndirilməsi; uşaq hüquqlarının müdafiəsi sahəsində qeyri-məhkəmə formalarının gücləndirilməsi; uşaq hüquqları sahəsində müstəqil Ombudsman Təsisatının yaradılması və ya mövcud təsisat çərçivəsində uşaq hüquqlarına xüsusi zəruri diqqətin ayrılması; Yuvenal ədliyyə sisteminin formalaşması və daha da inkişafı.

Bu istiqamətdə əhəmiyyətli addımlardan biri də Yuvenal ədliyyənin formalaşdırılması və inkişafıdır. Yuvenal Ədliyyə haqqında Qanunun qəbul edilməsindən bu sahədə spesifik məhkəmələrin formalaşmasına qədər bütün məsələlər, bilavasitə uşaqların hüquqlarının müdafiəsinə yönəlməlidir.

Eyni zamanda, uşaqların hüquqi statusu ilə əlaqədar qanunvericilik bazasının təkmilləşdirilməsi kimi nəzarətsiz və kimsəsiz uşaqlar üzrə, həmçinin, ailədə uşaq zorakılığı üzrə qanunvericilik bazasının; ailə tərbiyəsi üzrə qanunvericilik bazasının; uşaqların şəxsi təhlükəsizliyi üzrə qanunvericilik bazasının möhkəmləndirilməsi zəruridir. Eyni zamanda, sabit inkişafa keçidlə əlaqədar uşaq hüquqlarının müdafiəsinə dair kompleks Milli Fəaliyyət Planının qəbul edilməsi də bu sahədə əhəmiyyətli addım hesab edilə bilər”.

N.Adilov aparılmış təhlillərlə, bütövlükdə insan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi sistemində uşaq hüquqlarının müdafiəsinin əsas xüsusiyyətlərini və elementlərini bir neçə istiqamətdə müəyyən etmişdir:

**1.** Özünün məqsəd və funksional xüsusiyyətlərinə görə xüsusi tənzimetmə tələb etsə də, uşaq hüquqlarının tənzim edilməsində əsas istiqamət insan hüquqları amilidir. Uşaq hüquqları insan hüquq və azadlıqları vahid sisteminin tərkib hissəsidir. Lakin uşaq hüquqlarına yanaşmanın özünün spesifikliyi problemə daha dərindən və bir qədər də fərqli formada yanaşmanı tələb edir. Tarixi aspektlərin də təhlili uşaq hüquqlarına insan hüquqları kontekstində bir qədər fərqli (daha humanist) yanaşmanı sübut edir. Uşaqların psixi və fiziki inkişaf xüsusiyyətləri, həyat təcrübələrinin yoxluğu və müəyyən dərəcədə valideynlərdən asılı olması, hüquqlarının və qanuni maraqların müdafiəsi üçün müvafiq orqanlara heç də həmişə müraciət edə bilməməsi, nəhayət, buna uyğun olaraq, bir sıra fərqli hüquqların müəyyən edilməsi (ailədə yaşamaq, valideynləri tərəfindən qayğı hüququ və s.) bu zaman əsas amillər kimi çıxış edir.

**2.** Uşaqlara münasibətdə onların hüquqları və qanuni maraqlarının müdafiəsinə yönələn hüquqi siyasətin həyata keçirilməsi beynəlxalq cəmiyyətin və dövlətin prioritet istiqamətlərindən biridir. Uşaqların hüquqi statusunu tənzim edən beynəlxalq hüquq normalarının ətraf təhlili göstərir ki, müasir beynəlxalq hüquqda uşaqların hüquqi statusunun tənzimlənməsi və inkişafına yönələn geniş beynəlxalq normativ sistem formalaşmışdır. Bununla yanaşı, bu istiqamətdə müvafiq beynəlxalq nəzarət mexanizminin (Uşaq Hüquqları Komitəsinin) fəaliyyət istiqamətlərinin daha da inkişafı uşaq hüquqlarının realizəsinin səmərəli üsullarını müəyyən etməyə imkan verərdi. Eyni zamanda, uşaq hüquqlarının təminatında mühüm sistem kimi çıxış edən regiona) müdafiə mexanizmlərinin fəaliyyəti daha da gücləndirilməli və onların universal orqanlarla sıx əməkdaşlığı formalaşmalıdır. Daha sonra, uşaq hüquqlarının müdafiəsində qeyri-hökumət təşkilatlarının fəaliyyətinin gücləndirilməsi bu azadlıqların təmin edilməsində və nəzarətdə səmərəliliyin əsas faktorlarından hesab edilməlidir.

**3.** Uşaqların hüquqi statusunu tənzim edən prinsiplər, məhz beynəlxalq hüququn əsas, ümumtanınmış prinsipləri, daha sonra, insan hüquqlarının beynəlxalq hüquqi müdafiəsinin sahəvi prinsipləri əsasında formalaşdırılmalıdır. Bu isə, uşaqların hüquqi statusunu tənzim edən prinsiplərin ümumi, sahəvi və spesifik prinsiplər sistemində qurulmasını şərtləndirir.

**4.** Uşaqların ayrı-ayrı kateqoriyalarına (uşaq-əlillər, uşaqlar-hərbi konflikt qurbanları, uşaq-qaçqınlar, uşaq-valideyn himayəsindən məhrum olanlar və s.) yanaşma tərzi istiqamətində də bir sıra dəqiq tənzimlənmənin olması zəruridir. Bu zaman həmin istiqamətlərdə (məsələn, uşaqların iqtisadi və seksual istismarın qarşısının alınması, uşaq alverinin qarşısının alınması; bioetika sahəsində uşaqların hüquqlarının müdafiəsinə həsr edilmiş yeni beynəlxalq-hüquqi sənədin qəbul edilməsi) bir sıra aspektlər üzrə özündə ciddi standartları (məsuliyyət məsələləri də daxil olmaqla) əks etdirən mühüm beynəlxalq normaların qəbul edilməsi və müvafiq olaraq dövlətdaxili fəaliyyətin həyata keçirilməsi (və ya daha da təkmilləşdirilməsi) zəruridir.

**5.** Hüquqi tənzimlənmə sferasında səmərəliliyə nail olmaq üçün, bu istiqamətdə qəbul edilmiş bütün beynəlxalq sənədləri nəzərə almaqla, hərbi konfliktlər dövründə uşaq hüquqlarının qorunmasını təmin edən yekdil universal beynəlxalq müqavilə qəbul edilməli və bu istiqamətdə hüquqların təminatı üzrə spesifik beynəlxalq nəzarət mexanizmininin yaradılması zəruridir. Həmin nəzarət mexanizmində dövlətlərdən müvafiq hesabatların alınması ilə bərabər, beynəlxalq normaların pozulmasına görə məsuliyyət məsələlərinin də ciddi reqlamentləşdirilməsi zəruridir.

**6.** Bütövlükdə, uşaq hüquqları sahəsində AR qanunvericiliyinin hərtərəfli təhlili göstərir ki, uşaqların hüquqlarının müdafiəsi sahəsində beynəlxalq standartlar nəzərə alınmaqla bərabər, eyni zamanda, bu sahədə dünyanın müxtəlif regionlarının təcrübəsi də diqqətdən yayınmamışdır. Eyni zamanda, dövlətdaxili qanunvericiliyin təkmilləşdirilməsi zamanı uşaq hüquqlarının müdafiəsi istiqamətində bir sıra meyarların nəzərə alınması zəruridir (ümumi işləyənlərə münasibətdə yetkinlik yaşına çatmayanlar üçün iş yerlərinin kvotasının müəyyən edilməsi; qadağan olunmuş yerlərdə və s. formalarda uşaq əməyindən istifadəyə görə nəzarət sisteminin və məsuliyyət tədbirlərinin daha da gücləndirilməsi uşaq hüquqlarının müdafiəsi sahəsində qeyri-məhkəmə formalarının gücləndirilməsi; uşaq hüquqları, sahəsində müstəqil Ombudsman Təsisatının yaradılması və ya mövcud təsisat çərçivəsində uşaq hüquqlarına xüsusi zəruri diqqətin ayrılması; Yuvenal ədliyyə sisteminin formalaşması və daha da inkişafı və s.). Bununla əlaqədar, uşaq hüquqlarının həyata keçirilməsilə beynəlxalq hüquqi standartlara uyğun tərzdə səmərəliliyi təmin etmək, o cümlədən, sabit inkişafa keçidlə əlaqədar AR praktikasında geniş Milli Fəaliyyət Planının qəbul edilməsi zəruridir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

## "Çelsi" Konteni göndərmək üçün 11 milyon avro ödəyəcək



"Çelsi" nəhayət baş məşqçi Antonio Konte ilə bağlı qərarını verib. SİA-nın məlumatına görə, klub rəhbərliyi mütəxəssislə yolların ayrılması qarşılığında 11 milyon avro ödəməyi qəbul edib. Məşqçi dünən səhər məşqinə çıxsa da, axşam iştirak etməyib. Kontenin yerinə posta gələcək Maurizio Sarrinin yaxın günlərdə rəsmən baş məşqçi olacağının açıqlanacağı gözlənilir. Digər tərəfdən, Sarri ilə birlikdə komandaya "Napoli"nin futbolçusu Jorjinyonun da transferi açıqlanacaq. Sarrinin transfer siyahısında Moskva MOİK-indən Aleksandr Qolovin və "Yuventus"un gənc futbolçusu Daniel Ruqani də yer alıb.

## Bu meyvə nə qədər yeyilsə də, kökəlməyə səbəb olmur



Payızda yetişən faydalı meyvələrdən biri də xurmadır. Xurma ağacı çox məhsuldardır və onu qışda torpaq yuxuda ikən əkmək daha yaxşıdır, çünki yaz fəsli gələndə ağac artıq yeni məkanda inkişaf etməyə başlayır. Meyvələri yetişəndə qırmızı və qonur qırmızı rəngdə olur.

AZƏRTAC xəbər verir ki, xurmanın təxminən 500 növü var və onun vətəni Çin hesab edilir. Ən çox Cənub-Qərbi Asiya, Yunanıstan, İspaniya, Türkiyə, Amerika və Avstraliyada yetişdirilir. XIX əsrin axırlarından etibarən məşhurlaşmağa başlayıb. Azərbaycanda da daha çox cənub bölgəsində, Göyçay, Ağdaş, Zaqatala rayonlarında Şərq xurması növü becərilir. Ondan başqa Qafqaz və Virgen xurması olmaqla daha iki növ yabanı xurmaya da rast gəlinir.

Şərq xurmasının tərkibində 13-16 faiz qlükoza və fruktoza şəkəri, üzvü turşular, yod birləşmələri və digər vitaminlər var. Ümumi zəiflik, qan azlığı, vitamin çatışmazlığı zamanı çox faydalıdır. Ürək-damar xəstəliklərinin müalicəsinə çox müsbət təsir göstərir. Tərkibində olan fosfor beynin tələbatını ödəyir. Mütəxəssislər onun acqarına yeyilməsini məsləhət görmürlər.

Xurmanın özü qədər qabığı və tumları da vitaminlərlə zəngindir. Təcrübə göstərir ki, onun meyvələri nə qədər yeyilsə də, kökəlməyə səbəb olmur. Hətta onun tumlarını qurudaraq üyüdəndən sonra kofe kimi dəmləyib içmək çox faydalıdır.

## Suyu qaynadıb içmək olarmı?

Bəzən su çirkli olduğuna görə onu qaynadandan sonra içirlər. Qaynadılmış suyun içilməsinin orqanizm üçün nə dərəcədə faydalı və ziyanlı olması sağlamlığına biganə olmayan hər kəsi maraqlandırır.



AZƏRTAC mütəxəssislərin rəyinə əsasən xəbər verir ki, su qaynayan zaman tərkibindəki kalsium, kalium, maqnezium, karbonatlar və başqa minerallar ondan ayrılaraq qaynayan qabın divarlarına yapışır və nəticədə su mineralsızlaşır.

İkincisi, qaynayan zaman əmələ gələn qabarcıqlar suda olan oksigenin səviyyəsini aşağı salır, su nə qədər çox qaynayarsa, bir o qədər ağırlaşır. Yeri gəlmişkən,atom sənayesində istifadə olunan "ağır su" sayılan deyterium da suyun dəfələrlə qaynadılması və hidroliz olması nəticəsində alınır. Həmin su hüceyrələrdən pis sorulur, hüceyrələri çiy su qədər qidalandıra bilmir. Daim qaynadılmış su içənlərin dəriləri sönük, saçları cansız, fiziki fəallıqları həmişə aşağı səviyyədə olur, çiy su içənlərin dəriləri isə parlaq olur.

Üçüncüsü, suyu zərərsizləşdirmək üçün ona vurulan xlor qaynadılandan sonra artıq zərərli birləşmə əmələ gətirir. Mütəxəssislər satılan sutəmizləyici qurğulardan istifadə etməyi və həmin qurğular vasitəsilə adi suyu təmizləyib içməyi məsləhət görürlər.


**ELAN**

**Kərimov Çingiz Ovçu oğluna məxsus Bakı şəhəri Sabunçu rayonu Bakıxanov qəsəbəsi Xasməmmədov küç 2, mənzil 28, seriya ÖM №220184 mənzilin kupçası (çıxarış) itdiyi üçün etibarsız sayılır.**


## Maradona: "Hər şeyi Messinin üzərinə yıxmaq olmaz"



Argentinalı əfsanəvi hücumçu Diyeqo Maradona bildirib ki, Futbol üzrə 2018-ci il dünya çempionatının 1/8 finalında mübarizəni dayandırmalı olmuş Argentina yığmasının daha yüksək nəticələrə nail ola bilməməsi hücumçu Lionel Messinin oyunu ilə bağlı deyil: "Bütün problemləri Messinin üzərinə yıxmaq olmaz. Messi həm qol vurmalı, həm ötürmələr etməli, həm də topu rəqiblərindən almalıdır, lakin bu mümkün deyil. Biz əsl komanda yaratmalıyıq. Problem Messidə deyil, bütün komandanın oyununun keyfiyyətindədir".

Xatırladaq ki, Futbol üzrə 2018-ci il dünya çempionatının 1/8 finalında Argentina futbolçuları Fransa yığmasına 3:4 hesabı ilə uduzublar.

## Ronaldo getdi, "Real" 1 milyon izləyicisini itirdi



Portuqaliyalı futbolçu Kriştiano Ronaldo "Real"dan "Yuventus"a transfer olduqdan sonra əvvəlki komandası gözlənilməz hadisə ilə üzləşib. "Qafqazinfo" xarici KİV-ə istinadən xəbər verir ki, Ronaldo ilə bərabər "Real"ın Tvitterdəki 1 milyon izləyicisi də komandanın səhifəsini tərk edib.

Əvvəlcə 32 milyon istifadəçisi olan səhifəni izləyənlərin sayı 31 milyona düşüb. Əvəzində "Yuventus"un izləyicilərinin sayı 20% artaraq 6,16 milyon olub. Bu vəziyyət təkcə Tvitterdə deyil, Feysbuk səhifəsində də müşahidə olunub. "Yuventus"un Feysbuk istifadəçilərinin sayı 400 min, İnstaqram izləyicilərinin sayı isə 900 min nəfər artıb.

## "Barselona" növbəti transferini təqdim edib




"Sevilya"nın sabiq müdafiəçisi Kleman Lanqlenin "Barselona"ya keçidi rəsmiləşib. Katalon klubunun rəsmi saytında yer alan məlumata görə, tibbi müayinədən uğurla keçən fransız futbolçu ictimaiyyətə təqdim olunub. "Barselona" Lanqleyə görə klubuna 35,9 milyon avro ödəyib. Qeyd edək ki, 23 yaşlı futbolçu 2017-18 mövsümündə İspaniya La Liqasında meydana çıxdığı 35 görüşdə 3 qol vurub, 1 məhsuldar ötürmə edib.

## "Xorvatiya Avropa futbolunun lokomotividir"




"Rusiyada keçirilən futbol üzrə dünya çempionatı turnirin tarixində ən yaxşısıdı". APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu FİFA prezidenti Canni İnfantiono bildirib. Qurum başçısı dünən Moskvadakı "Lujniki" stadionunda keçirdiyi mətbuat konfransında çempionatın turnirin tarixində ən yaxşı olmasını fikirlərini belə əsaslandırıb: "Rusiyada keçirilən çempionat ərzində stadionlar 98 faiz dolub. DÇ-ni izləmək üçün ölkəyə 1 milyondan çox turist gəlib. DÇ-nin matçlarını 3 milyarddan çox adam televiziyadan izləyib. Rusiyanın şəhərlərindəki azarkeş festivallarına 1 milyondan çox adam qatılıb. Bütün bunlar yüksək göstəricidi. Ona görə də Rusiyada keçirilən DÇ turnirin tarixinə ən yaxşı kimi düşüb".

İnfantino çempionatın təşkilinə görə Rusiya rəhbərliyinə təşəkkürünü bildirib: "Çox möhtəşəm çempionat keçdi. Rusiya xalqına, bütün Rusiyaya təşəkkür edirəm. Rusiya hökumətinə, prezident Vlaidmir Putinə, yerli təşkilat komitəsinə, Rusiya Futbol İttifaqına minnətdaram". FİFA prezidenti Xorvatiyanın finala yüksəlməsi barədə də danışıb: "Balkanlılar çempionatda möhtəşəm oyun göstərdi. Bu gün Xorvatiya Avropada futbolun lokomotividi".


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**